www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 dekabr 2024-cü il Cümə axşamı № 235 (8608) Qiyməti 60 qəpik

**Xəbər**

**YDM-lərdəki qanunsuzluqlar dövlətin diqqətində - nəzarət gücləndiriləcək**

yazısı səh.11-də

## Gündəm

**İlham Əliyevin mühüm mesajı - sabitliyin qarantının müəllifi**



Azərbaycan regionun və dünyanın ən güvənli ölkələrindən birinə necə çevrildi...

yazısı səh.5-də

**Suriyada prosesləri Türkiyə Azərbaycanla birgə nizamlayacaq - anlaşma**

yazısı səh.7-də

**TikTok-da əxlaqlı mühit yaratmaq mümkün olacaqmı - nə etməli...**

yazısı səh.10-da

**Əmək haqqı və pensiyalar artdı - süni qiymət artıran işbazlar isə...**

yazısı səh.6-da

**5 dərəcə şaxta, yağış, külək - xəbərdarlıq**

yazısı səh.11-də

**Saxta diplom bəlası - çıxış yolu nədir...**

yazısı səh.14-də

**Avropanın qaz anbarları sürətlə boşalır - gərgin durum**

yazısı səh.12-də

**Yeni Klinika TƏBİB-in tabeliyinə verildi**

yazısı səh.14-də

**Rusiya-Ukrayna müharibəsi uzadılır, yoxsa... - Kremldən Kiyevə yeni ittihamlar**

yazısı səh.13-də

**Pirotexniki vasitələrin satışı ilə bağlı 17 nəfər saxlanıldı**

yazısı səh.12-də

**Gənclər niyə maşın sevdalısı olub? - ictimai nəqliyyatdan bezginlik, yoxsa...**

yazısı səh.15-də

# TƏYYARƏMİZ AKTAUDA NİYƏ QƏZAYA UĞRADI - PREZİDENTDƏN AÇIQLAMA

Pilotların peşəkarlığı sayəsində 67 nəfərdən 29-u sağ qaldı; ölkə matəm içində; Dövlət Komissiyası bütün versiyaları araşdırır



yazısı səh.3-də

# Mənfi məqsədli "Aİ Plus" missiyası - sülhə daha bir əngəl

Aİ missiyasının mandatının uzadılması ilə bağlı Makron planını dəstəkləməsi Ermənistana baha başa gələ bilər - Bakıdan xəbərdarlıq

yazısı səh.9-da



*Zaxarova:*
**"Minsk Qrupunun bütün strukturları ləğv edilməlidir"**

yazısı səh.2-də



**Paşinyan bədnam qrupun ləğvi üçün hazırlığa başladı - detallar**

yazısı səh.8-də



**Tağı İbrahimov özünü təqsirli bilməsə də, 400 min ödəyib**

yazısı səh.4-də

# Dövlət Komissiyasının iclası keçirildi



Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib.

Bu barədə Nazirlər Kabinetindən məlumat verilib. Komissiyanın sədri Əli Əsədov Prezident İlham Əliyevin hadisə ilə bağlı araşdırmanı şəxsi nəzarətə götürdüyünü bildirib.

Dövlət Komissiyası bir sıra vacib və təxirəsalınmaz məsələləri, o cümlədən qəza nəticəsində xəsarət alanlara və yaralananlara zəruri yardım göstərilməsi ilə bağlı işləri nəzərdən keçirdi. Həmin şəxslərə Qazaxıstan tərəfi ilə birlikdə tibbi yardım göstərilməsi üçün səhiyyə naziri Teymur Musayevə müvafiq tapşırıqlar verilib.

Qəza nəticəsində həlak olmuş şəxslərin identifikasiyası üzrə işlərin aparıldığı qeyd olundu. Xəsarət almış şəxslərin ailələri və yaxınları ilə zəruri işlərin aparılması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı tapşırıq verildi.

Heydər Əliyev Beynəlxalq Aeroportunda yaradılmış “Qaynar xətt” vasitəsilə qəzaya uğramış təyyarənin sərnişinlərinin ailə üzvləri və yaxınları müvafiq qaydada məlumatlandırılaraq, onlara psixoloji və digər zəruri dəstək göstərildiyi qeyd edildi.

Azərbaycan Respublikası Baş Prokurorluğunun qazaxıstanlı həmkarları ilə birlikdə hadisənin baş vermə səbəblərini araşdırdığı və cinayət işi üzrə istintaq apardığı bildirildi. İstintaqın gedişi haqqında ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıq verildi.

Qəza nəticəsində xəsarət almış və hazırda Aktau şəhərində müalicəsi davam edən Azərbaycan vətəndaşlarının zərurət yarandıqca və həkimlərin razılığı əsasında ölkəmizə evakuasiyasının təşkili ilə əlaqədar müvafiq tədbirlərin görüldüyü bildirildi.

Xəsarət almış şəxslərə zəruri yardım göstərilməsi və bundan irəli gələn digər məsələlərin həlli ilə bağlı qazaxıstanlı həmkarlarla hökumət üzvləri səviyyəsində daimi sıx təmasların və birgə səylərin həyata keçirildiyi vurğulandı. Komissiya üzvlərinə səlahiyyətləri üzrə müvafiq işlərin aparılması ilə bağlı tapşırıqlar verildi.



## Zaxarova: “Minsk Qrupunun bütün strukturları ləğv edilməlidir”

**ATƏT-in Minsk Qrupu aktuallığını itirib. APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova dünən keçirdiyi brifinqdə bildirib.**

Onun sözlərinə görə, Minsk Qrupunun amerikalı və fransalı həmsədrləri rusiyalı həmsədrlə 2022-ci ilin fevralından təmasları kəsib. “Onlar bunu təşəbbüskarcasına ediblər. Bundan başqa, 2022-ci il oktyabrın 6-da Praqada keçirilən Azərbaycan, Ermənistan, Fransa və Avropa İttifaqının sammitinin yekunlarına əsasən Ermənistanın Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıması, 2023-cü ilin sentyabrında yerdə vəziyyətin kardinal şəkildə dəyişməsi ATƏT-in Minsk Qrupunun mandatının aktuallığını itirməsi ilə nəticələnib”.

**Zaxarova qeyd edib ki, bu proses Qərbin Minsk Qrupu formatının işini bloklaması ilə başlayıb:** “Daha sonra isə reallıqda dəyişikliklər baş verib. Deməli, Minsk Qrupunun bütün strukturları: Minsk Qrupu, Yüksək səviyyəli planlaşdırma qrupu, ATƏT sədrinin Dağlıq Qarabağ nizamlanması üzrə şəxsi nümayəndəsi postu ləğv edilməlidir. Hesab edirik ki, müvafiq qərarın qəbul edilməsi üçün optimal yol Bakı və İrəvanın qeyd olunan institutların ləğv edilməsi üçün birgə təkliflə çıxış etməsidir”.



## Müəllimin verdiyi ev tapşırığı onu milyonçu etdi

**ABŞ-da yaşayan 10 yaşlı uşaq müəlliminin verdiyi tapşırıqla həyatını tamamilə dəyişib.**

2014-cü ildə Tripp Filips adlı uşağın sinif müəllimi şagirdlərindən ev tapşırığı üçün bir şey icad etmələrini istəyib.

Tripp isə leqoları ilə oynayarkən davamlı olaraq dağıldığını müşahidə edərək, güclü, lakin zərərsiz bir yapışdırıcıya ehtiyac olduğunu müəyyən edib.

O, 2015-ci ildə keçirilən “International Torrance Legacy Creativity Awards” müsabiqəsində iştirak edib və leqo yapışqan ideyası ilə birinci yeri qazanıb.

Bu hadisədən sonra Tripp 40 min dollar toplayıb və “LeGlue” adlandırdığı yapışdırıcını istehsal etməyə başlayıb. Bu yapışqanın ən əhəmiyyətli xüsusiyyəti onun ılıq suda həll olması və leqolardan asanlıqla ayrılmasıdır.

Səyləri nəticəsində Trippin qazancı 2022-ci ildə 1 milyon dollara, 2024-cü ildə isə 2 milyon dollara çatıb. (Publika.az)

## Matəm günü ilə əlaqədar televiziyaların proqramında dəyişiklik edildi

**Azərbaycanda 26 dekabr matəm günü ilə əlaqədar televiziyaların proqramlarında dəyişiklik olacaq.**

Bu məlumat Audiovizual Şuradan verilib.

“Media haqqında” Qanunun tələblərinə uyğun addımlar atılacaq. Həmçinin ictimaiyyətə əlavə məlumat veriləcək", - deyə xəbərdə bildirilib.

AZƏRBAYCAN RESPUBLİKASI AUDİOVİZUAL ŞURASI



## Başar Əsəd tərəfdarları nümayiş keçirdi - yeni bayraq qaldırdı

**Suriyada Bəşər Əsədin 400 nəfərdən ibarət tərəfdarı nümayiş keçirib.**

Musavat.com xarici mediaya istinadən xəbər verir ki, onlar yeni bayraq qaldırıblar.

Qeyd edək ki, Suriyada Bəşər Əsəd rejiminin 8 dekabr 2024-cü ildə süqutundan sonra ölkədə siyasi dəyişikliklər baş verib. Bu hadisədən sonra keçirilən nümayişlərdə yeni bayraq qaldırılıb.

Yeni bayraq Suriyanın müstəqillik dövründə istifadə edilən üçrəngli bayrağın dəyişdirilmiş versiyasıdır. Bu bayraq yaşıl, ağ və qara rənglərdən ibarətdir, üzərində 3 qırmızı ulduz yer alır. Müxalifət bu bayrağı 2011-ci ildən, xüsusilə Bəşər Əsədin hakimiyyətinə qarşı çıxan nümayişlərdə simvol olaraq qəbul edib. Suriya Milli Şurasının rəsmisi Xalid Kamal bu bayrağın müstəqilliyi və Bəşər Əsəd hökumətinin sona çatmasını təmsil etdiyini bildirib.

Yeni bayrağın qaldırılması Suriyada Əsəd rejiminin süqutundan sonra ölkənin yeni bir siyasi istiqamətə yönəldiyini və keçmişin zülmkar rejimindən uzaqlaşmaq istəyini göstərir. Bu dəyişiklik Suriyanın gələcəyində daha demokratik və ədalətli bir cəmiyyət qurma arzusunu əks etdirir.

**AFAQ,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# Təyyarəmiz Aktauda niyə qəzaya uğradı - Prezidentdən açıqlama

## Pilotların peşəkarlığı sayəsində 67 nəfərdən 29-u sağ qaldı; ölkə matəm içində; Dövlət Komissiyası bütün versiyaları araşdırır



**Dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi təcili eniş zərurəti ilə bağlı Aktau şəhəri istiqamətinə yön alaraq, Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Hadisə saat 11 radələrində baş verib.**

Göyərtədə 62 sərnişin, 5 ekipaj üzvü olmaqla, ümumilikdə 67 nəfər olub.

Faciə baş verəndən dərhal sonra Prezidentin mətbuat xidməti məlumat yaydı. Xəbərdə bildirildi ki, Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlət başçısı dərhal geri dönmək barədə tapşırıq verib.

Təyyarədə olarkən dövlət başçısı tərəfindən qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına lazımi tapşırıqlar verilib.

Prezident İlham Əliyevin olduğu təyyarə Bakı şəhərində Heydər Əliyev Beynəlxalq Aeroportuna eniş etdikdən sonra dövlət başçısı hava limanında müşavirə keçirib.

**Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib:**

- Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyirəm. Onların ailələrinə, yaxınlarına Allahdan səbir diləyirəm, başsağlığı verirəm. Bu, böyük faciədir, Azərbaycan xalqına böyük facie üz vermişdir.

Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə - Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı-Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq.

Qəzada həlak olanların və onların yaxınlarının acısını çəkərək, həlak olanlara Allahdan bir daha rəhmət, yaralananlara şəfa, həlak olanların, yaralananların yaxınlarına, doğmalarına səbir diləyirəm.

Prezident İlham Əliyev Qazaxıstanın Aktau şəhəri yaxınlığında AZAL-a məxsus təyyarənin qəzaya uğraması nəticəsində həlak olanlarla bağlı başsağlığı verib.

Bu barədə dövlət başçısının sosial şəbəkə hesablarında paylaşım edilib.

**Paylaşımda deyilir:** ""Azərbaycan Hava Yolları" şirkətinə məxsus Bakı-Qrozmı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirəm".

Qeyd edək ki, sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.

Prezident həmçinin baş vermiş hadisənin səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə Dövlət Komissiyası yaradılması haqda da sərəncam imzalayıb.

Dövlət Komissiyasının sədri Əli Əsədov təyin olunub.

Sərəncama əsasən, Dövlət Komissiyası qəza nəticəsində həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə müvafiq yardım göstərilməsi təmin ediləcək, qəza nəticəsində həlak olmuş və xəsarət almış xarici ölkə vətəndaşları ilə bağlı məsələlər həll ediləcək.

***



Pilotlar









**AZAL-ın J2-8243 nömrəli Bakı-Qrozmı reysində olan sərnişinlərin və ekipaj üzvlərinin siyahısı:**

*1. Ağayev Ramin*
*2. Əhmədov Rəşad*
*3. Əlimirzəyeva Xədicə*
*4. Əlimirzoyev Əli*
*5. Əliyev Zamin İdris*
*6. Anqbazova Maleyka*
*7. Arsbayeva Ceyran*
*8. Arsbayeva Madina*
*9. Asanov Rinat*
*10. Atsayeva Zaira*
*11. Babayev Anar*
*12. Bayramova Leyla*
*13. Bayramzadə Ayhan*
*14. Bislieva Cəmilə*
*15. Devrişov Samir*
*16. Devrişov Tofik*
*17. Cünüşaliyev Erlan*
*18. Ediev Uvais*
*19. Eqanov Məhəmmədəli*
*20. Evstiqneeva Kristin*
*21. Filiyev Ramazan*
*22. Qədirov Heydər*
*23. Qistarov İbrahim*
*24. Qistarov Rəşid*
*25. Qoqamova Möminat*
*26. Qurbaxov Həmzət*
*27. İandarov Arbi*
*28. İbrahimov Ramin*
*29. İgidova Nərminə*
*30. İsmayılov İsmayıl*
*31. İsmayılov Həbib*
*32. Cəfərov Toğrul*
*33. Cəlilov Nizami*
*34. Carayev Arif*
*35. Carayev Hacibrahim*
*36. Carayev Mahir*
*37. Ceerov Xızrı*
*38. Ceerova Salihət*
*39. Cüməqulov Bauyrcan*
*40. Cütayeva Salima*
*41. Xalayeva Hafisət*
*42. Kostiyev İbrahimxan*
*43. Maxsudova Qalina*
*44. Məmedov Zaur*
*45. Mehdiev Yadigar*
*46. Mustafayev Faiq*
*47. Omarova Leyla*
*48. Osmonov Tilek*
*49. Papaxov Mahəmməd*
*50. Rəximov Subxonkul*
*51. Sadıqov Qoşqar*
*52. Səidullayev Zinatul*
*53. Şabanova Vafa*
*54. Şaimərdanova Qauk*
*55. Siracov Nurullah*
*56. Siracova Müslimat*
*57. Tuleşsinov Sandibek*
*58. Tutunçiyev Mahmud*
*59. Ubaev Arbi*
*60. Yeznayeva Rana*
*61. Cəməlullail Medin*
*62. Cumaqat Eldar*

**Ekipaj üzvlərinin siyahısı:**

1. Kşnyakin İqor
2. Kalyaninov Aleksandr
3. Əliyeva Hökümə
4. Əsadov Zülfüqar
5. Rəhimli Aydan

İlkin məlumata əsasən, 29 nəfərin sağ qaldığı müəyyən edilib. Aralarında vəziyyəti ağır olanlar var. 38 nəfər isə dünyasını dəyişib.

AZAL-ın Bakı-Qrozmı reysində olan sərnişinlərin ailə üzvləri üçün qaynar xətt yaradılıb. (+994) 12 5048280, (+994) 12 5048202, (+994) 12 5048203 nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər.

İstintaq prosesi başa çatana qədər "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qrozmı-Bakı və Bakı-Mahaçqala-Bakı marşrutları üzrə reysləri dayandırılır.

Bu barədə "Azərbaycan Hava Yolları" QSC (AZAL) məlumat yayıb.

Qeyd edilib ki, digər istiqamətlərdə uçuşlar ştat rejimində cədvələ uyğun həyata keçirilir.

Nəzərə çatdıraq ki, Prezidentin tapşırığına uyğun olaraq, təyyarə qəzası ilə əlaqədar Dövlət Komissiyasının üzvləri - fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin rəhbərlik etdiyi heyət dərhal Qazaxıstana yola düşüb.

Sosial şəbəkələrdə yayılan videoda Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərovla hər hansı bir şəxs (videoda üzləri görünmür) arasında dialoq öz əksini tapıb.

Həmin şəxs Kəmaləddin Heydərova təyyarənin üzərində güllə izlərinə bənzər dəliklər göstərir və "vurulma ola bilər", - sualını verir.

Eyni zamanda təyyarə üzərində nə üçün bu qədər qırma izlərinə bənzər deşiklərin olması da müzakirə olunur.

Ancaq qəzetimiz çapa gedənədək qəzanın səbəbi barədə rəsmi açıqlama verilməmişdi.

İlkin versiyalarda belə iddialar da var idi ki, təyyarə quş topası ilə toqquşub.

Təyyarənin hansı səbəbdən qəzaya uğraması isə yalnız xüsusi araşdırma nəticəsində məlum olacaq...

Yayılmış videolardan o da sezilir ki, pilotlar kifayət qədər peşəkar olublar, son anadək təyyarəni qəzadan yayındırmaq istəyiblər, buna nail olmadıqda boş əraziyə düşürüblər. Ekspertlər bildirir ki, qəzada 30 nəfərdən çox insanın sağ qalması məhz bu pilotların peşəkarlığının nəticəsidir.

Qəza zamanı hər iki pilot həlak olub.

Faciə ilə bağlı dünya ölkələrinin liderləri Azərbaycana başsağlığı veriblər.

**Allah qəzada dünyasını dəyişənlərə rəhmət eləsin!**

**❑ T.ƏHMƏDLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# Məhkəmə sertifikasiyadan kəsilən müəllimlərin tələbini rədd etdi

**Cari ildə keçirilən sertifikatlaşdırma prosesi ilə bağlı elm və təhsil nazirinin müvafiq əmri ilə yaradılan komissiyalara daxil olan müraciətlərin nəticələri ilə bağlı ictimaiyyət bir neçə ay bundan əvvəl məlumatlandırılıb.**

Ümumilikdə, sosial baxımdan həssas əhali qrupuna aid yüzlərlə vətəndaşın alternativ işlərə cəlb edilməsi istiqamətində qərarlar qəbul edilib, onlarla şəhid ailəsi üzvünün müvafiq işlə təmin olunması ilə bağlı tədbirlər görülüb.

Təkrar sertifikatlaşdırmanın nəticələri ilə razılaşmayan bəzi müəllimlər konstitusion hüquqlarından istifadə edərək məhkəmələrə müraciət ediblər.



Modern.az-ın əldə etdiyi məlumata görə, artıq həmin müəllimlərdən bəzilərinin müraciətlərinə cavab verilib.

Belə ki, sertifikasiya prosesində uğur qazana bilmədiyi üçün əmək müqavilələrinə xitam verilmiş Şəki rayonu İnçə-Zunud kənd tam orta ümumtəhsil məktəbinin, Şəki rayonu Baş Göynük 2 nömrəli tam orta ümumtəhsil məktəbinin keçmiş ibtidai sinif müəllimləri Ziyəddinova Mahirə Şəfayət qızının və Əliyeva Limun Musa qızının təkrar sertifikatlaşdırmanın nəticələrinin ləğv edilməsi və işə bərpa barədə iddia tələbləri Şəki Rayon Məhkəməsinin qətnamələri ilə rədd edilib.

Faktı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən sayta təsdiqləyiblər.

## Tağı İbrahimov özünü təqsirli bilməsə də, 400 min manat ödəyib

### Emalatxanada 10 nəfərin öldüyü partlayışla bağlı məhkəmə davam edir




**"Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin (ASC) ərazisində yerləşən mebel emalatxanasında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən partlayışla bağlı təqsirli bilinən şəxslərin cinayət işi üzrə məhkəmənin növbəti prosesi keçirilib.**

APA xəbər verir ki, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elmin Rüstəmovun sədrliyi ilə keçirilən prosesdə hakim tərkibində dəyişiklik olduğu üçün məhkəmə istintaqı yenilənib.

Prokuror ittiham aktını elan edib.

Daha sonra Tağı İbrahimovun vəkili vəsatət verərək bildirib ki, müdafiə etdiyi şəxs özünü təqsirli bilmir. Buna baxmayaraq, o, ittiham olunduğu iş üzrə 400 min manat vergi borcunu ödəyib. O, eyni zamanda zərəçəkmişlərin və hüquqi varislərin bir qisminə maddi təzminat ödəyərək barışıq əldə edib. Vəkil onun digərlərinə də yardım edə bilməsi üçün Tağı İbrahimovun haqqında seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı qətimkan tədbiri ilə əvəzlənilməsini xahiş edib.

Toğrul Rzayevin vəkili də müdafiə etdiyi şəxslə bağlı qətimkan tədbirinin dəyişdirilməsini istəyib.

İclasda iştirak edən zərərçəkmiş şəxslərin hüquqi varisləri maddi köməklik göstərilərsə, həbs-qətimkan tədbirinin dəyişdirilməsinə etiraz etməyəcəklərini bildiriblər.

Məhkəmə vəsatətləri təmin etməyib.

Proses yanvarın 15-də davam etdiriləcək.

Qeyd edək ki, bu il yanvarın 15-də paytaxtın Bakının Binəqədi rayonunda "Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin ərazisində yerləşən mebel emalatxanalarında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən yanğınla müşayiət olunan partlayış baş verib. Fakt əsasında Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində cinayət işi başlanıb.

İbtidai istintaqla ASC-nin faktiki sahibi, 1962-ci il təvəllüdlü Tağı İbrahimov və ASC-də inzibati-təsərrüfat idarəçiliyini həyata keçirən, 1992-ci il təvəllüdlü Toğrul Rzayevin üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxslər kimi bu qaydaları ehtiyatsızlıqdan pozaraq 10 nəfərin ölümünə, 23 nəfərin isə xəsarət almasına, habelə ASC-nin ərazisində olan əmlaklara və təbiətə maddi ziyan vurmaqla digər ağır nəticələrə səbəb olmaları, həmçinin Tağı İbrahimovun xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Tağı İbrahimova Cinayət Məcəlləsinin 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma) və 225.3-cü (üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə, Toğrul Rzayevə isə həmin məcəllənin 225.3-cü maddəsi ilə yekun ittiham elan edilib, onların hər ikisi barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

## Azər Zahid haqda həbs qərarı verildi - bu cinayətlərdə ittiham olunur



**TikTok-da əyləncə yarışları təşkil edən aparıcı Azər Zahid həbs edilib.**

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, sosial şəbəkədə əxlaqsızlığı təbliğ edilməsi ilə bağlı saxlanılan Azərin cinayətləri ortaya çıxıb. Ona qarşı cinayət yolu ilə əldə edilmiş pulları leqallaşdırma, qumar oyunları təşkil etmə və başqa maddələrlə ittiham irəli sürülüb.

Prokuror ağır cinayətlərdə təqsirləndirilən aparıcının həbsini istəyib. Təqdimata Nərimanov Rayon Məhkəməsində baxılıb. Hakim Gültəkin Əsədovanın qərarı ilə Azər Zahid barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, TikTok əməliyyatı ilə bağlı 15-dən çox saxlanılan var. Onların hamısı istintaqa cəlb edilib.

## Sabiq deputat Fərhad Qəribov vəfat etdi



**Milli Məclisin sabiq deputatı Fərhad Qəribov vəfat edib.**

Musavat.com xəbər verir ki, 72 yaşlı eks-millət vəkili Bakıda dünyasını dəyişib. Sabiq deputat bu gün Kürdəmir rayonunda dəfn ediləcək.

Qeyd edək ki, deputat seçilməzdən əvvəl uzun müddət meliorasiya sahəsində çalışmış F.Qəribov müstəqillik illərində biznes fəaliyyəti ilə məşğul olub. O, illər əvvəl lisenziyası ləğv edilmiş "Debutbank"ın və bir neçə digər iri kommersiya müəssisələrinin sahibi idi.

F.Qəribov parlamentin 3-cü və 4-cü çağırış (2005-2015) deputatı olub.

# İlham Əliyevin mühüm mesajı - sabitliyin qarantının müəllifi

## Azərbaycan regionun və dünyanın ən güvənli ölkələrindən birinə necə çevrildi...



**"Bu gün dünyada gedən proseslər göz qabağındadır. Qanlı toqquşmalar, müharibələr, münaqişələr, bəzi ölkələrin digər ölkələrin işlərinə kobudcasına qarışması, vəziyyətin gərginləşməsi - bütün bunları biz Azərbaycanda görmürük və görməyəcəyik".**

Bu sözləri Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı söyləyib.

"Çünki xalq-iqtidar birliyi, cəmiyyətdəki həmrəylik, vahid siyasi baxışlarımız, təbii ki, bizim tarixi Zəfərimiz və bir çox digər amillər bizi bu çətinliklərdən, çağırışlardan sığortalayır. Artıq 30 ilə yaxındır ki, Azərbaycan sabitlik şəraitində yaşayır və əminəm ki, bundan sonra əbədi sabitlik şəraitində yaşayacaq", - deyə dövlət başçısı bildirib.

Dövlət başçısı qeyd edib ki, hər yerdə ədalət olmalıdır - beynəlxalq münasibətlərdə, ailədə, hər bir ölkədə, hər bir cəmiyyətdə. Biz buna çalışırıq: "Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq. Əminəm ki, bu şanlı Qələbəmiz hər bir Azərbaycan gənci üçün əlavə ruhlandırma amili olacaq. Biz döyüş meydanındakı Zəfərimizə idman qələbələrini də əlavə etdik və bu, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Çünki idmanın inkişafı hər bir ölkənin ümumi inkişafının nümayişidir, onu əks etdirir. Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qabağında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu, bizim böyük sərvətimizdir".

**Deputat Aydın Hüseynov** bildirdi ki, Azərbaycanın dünyada sabitliyin hökm sürdüyü, müstəqil siyasət yürüdən azsaylı ölkələrdən birinə çevrilməsi məhz Ulu öndər Heydər Əliyevin siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində nail olunub: "İlham Əliyevin ilk dəfə prezident seçildiyi 2003-cü ildən ölkəmizdə keyfiyyətcə yeni inkişaf mərhələsi başlanıb. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 21 il sistemli inkişaf dövrü olub. O, ölkəmizi sürətlə inkişaf etdirərək, bölgənin lideri və söz sahibi, dünya birliyində isə öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevirdi. Müasir Azərbaycanın memarı, Ümummilli lider Heydər Əliyevin siyasi varisi olan Prezident İlham Əliyev uzaqgörən və müdrik iqtisadi siyasət həyata keçirməklə ötən 21 il ərzində Azərbaycanda misli görünməmiş quruculuq işləri aparıb və xüsusilə sosial-iqtisadi sahələrdə möhtəşəm uğurlara imza atıb. Sözsüz ki, bu nailiyyətlərin hər birinin təməlində Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik irsi və unikal inkişaf modeli dayanır. Xalqın gələcəyini düşünən əbədiyaşar lider zamanı qabaqlayaraq ölkəyə rəhbərliyinin bütün dövrlərində respublikamızın davamlı inkişafını və müstəqilliyimizin möhkəmləndirilməsini təmin etmək istiqamətində böyük işlər görmüş, Azərbaycanın strateji maraqlarının qorunması üçün zəruri və qəti addımlar atmışdır. Prezident İlham Əliyevin yetkin siyasətçi kimi formalaşmasında birbaşa Heydər Əliyev faktorunun əvəzolunmaz rolu var. Eyni zamanda özünün unikal siyasi dühası, zəngin elmi fəaliyyəti, Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda tədqiqatçı-alim kimi püxtələşməsi və diplomatiya, beynəlxalq münasibətlər sahəsində peşəkar kadr kimi özünü təsdiq etməsi onun siyasi istedadının formalaşmasında mühüm rol oynamışdır. Cənab İlham Əliyev gənc yaşlarından dövlətin iqtisadi-siyasi ənənələrinin və inkişaf modelinin yaranmasında yaxından iştirak etmiş, həmin illərdə ölkəmizin iqtisadi həyatında xüsusilə vacib bir faktora çevrilmiş enerji diplomatiyasının uğurlarında misilsiz xidmətlər göstərmişdir.

1995-ci və 2000-ci illərdə Milli Məclisə üzv seçilən İlham Əliyev deputat olduğu dövrdə geniş və çoxşaxəli fəaliyyət göstərib, qanunvericilik sahəsində yaxından iştirak edərək ali qanunvericilik orqanının fəaliyyətinə yenilikçi siyasətçi kimi sanballı töhfələr verib.

Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti və qətiyyətli çıxışları sayəsində ermənİ təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, Azərbaycanın ayrılmaz parçası olan Qarabağ və ətraf rayonların işğalı barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş və həlli yolunda mühüm addımlar atılmışdır.

Prezident İlham Əliyevin 2003-cü ildə hakimiyyətə gəlməsindən sonra əsas hədəfi güclü Azərbaycan qurmaq və dövlətin iqtisadi qüdrətini artırmaqla, bir nömrəli problemi - Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizin azad edilməsi məsələsini həll etmək olmuşdur. Beynəlxalq siyasi və iqtisadi münasibətlər sistemində Azərbaycanın etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi qüdrətlənməsi Prezident İlham Əliyevin qarşısında dayanan əsas məsələlərdən biri idi. Ümumilikdə, bütün bu faktorların gerçək həllini tapmasında başlıca vəzifə güclü iqtisadiyyatın formalaşdırılması idi. Güclü iqtisadiyyata malik, xalqına arxalanan iradəli lideri olan ölkə təbii ki, müstəqil siyasət aparmaq gücünə sahiblənməli və sabitlik adası olmalı idi. İqtisadi müstəqilliyimiz siyasi müstəqilliyə stimul rolunu oynadı. Azərbaycanın beynəlxalq münasibətlər sistemində nüfuzu daha da artdı, müxtəlif ölkələrlə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələr möhkəmləndi, diaspor quruculuğu dövlət siyasətinin əsas tərkib hissəsi kimi daim diqqətdə saxlanıldı. Artıq tarixin arxivinə atılmış Qarabağ münaqişəsinin həlli ilə bağlı möhkəm hüquqi baza formalaşdı, Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu arasında yer aldı. Azərbaycan 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərlə Ermənistanın 30 illik işğalına son qoydu. 2023-cü ildə şanlı ordumuzun keçirdiyi bir günlük lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin suverenliyi və ərazi bütövlüyü bərqərar oldu".

Deputat vurğuladı ki, Prezident İlham Əliyevin siyasətinin əsas qayəsini daim xalqa arxalanmaq, xalqın, dövlətin maraqlarını hər şeydən üstün tutmaq, xalq-iqtidar birliyi, qətiyyətli və müstəqil siyasət yürütmək təşkil edib. Azərbaycanın sabit və regionun lider dövləti statusuna malik müstəqil siyasət yürüdən ölkə səviyyəsinə yüksəlməsində bu siyasət öz sözünü deyib.

**Milli Məclisin Gənclər və idman, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin üzvü Mahir Süleymanlı isə bildirib ki, Azərbaycan sabit və inkişaf etməkdə olan, müstəqil siyasət aparan ölkə dünyada seçilən ölkələrdəndir. Bu nailiyyətin təməlində Ulu öndər Heydər Əliyev siyasətinin çox böyük məharətlə son 21 ildə Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi dayanır:** "Son 21 ildə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində Azərbaycan sosial-iqtisadi sahədə böyük uğurlar əldə edib. Bu dövr ərzində iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı prioritet olmuş, neft gəlirlərinin dayanıqlı inkişaf məqsədləri üçün istifadəsi təmin edilib. Azərbaycanın enerji sahəsindəki uğurları, xüsusilə "Əsrin müqaviləsi" əsasında formalaşan enerji strategiyası ölkəni yalnız regionda deyil, həm də dünya miqyasında etibarlı enerji tərəfdaşına çevirib. Cənub Qaz Dəhlizi çərçivəsində TANAP və TAP kimi layihələr Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyindəki rolunu daha da möhkəmləndirib. Bu dövrdə həyata keçirilən regional inkişaf proqramları nəticəsində müasir infrastrukturun qurulması, yolların, körpülərin, xəstəxanaların, məktəblərin və digər sosial obyektlərin tikilməsi əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Yoxsulluq səviyyəsinin 49 faizdən 5 faizədək azaldılması və işsizlik səviyyəsinin aşağı salınması Prezident İlham Əliyevin sosial siyasətinin uğurlu nəticəsidir. Azərbaycan həmçinin ictimai-siyasi sabitlik baxımından mühüm uğurlar əldə etmiş, bu da ölkənin inkişafının əsas sütunlarından biri olub. Dövlət başçısının uzaqgörən siyasəti və xalqla qarşılıqlı etimadı, həmçinin sabit bir mühitin yaradılması daxili və xarici təhdidlərin qarşısını almağa imkan verib.

Bu gün Azərbaycan regionumuzda ən böyük mülki hava, Xəzər dənizində isə ən böyük dəniz yük donanmalarına malik ölkədir. Dövlət başçısının rəhbərliyi dövründə ölkəmizdə 8 beynəlxalq hava limanı tikilib və yenidən qurulub. 2025-ci ildə Laçın Beynəlxalq Hava Limanı istismara verildikdən sonra Azərbaycanda beynəlxalq hava limanlarının sayı 9-a çatacaq. Hazırda Prezident İlham Əliyev Azərbaycanın "yaşıl enerji" ölkəsi statusunun dünya miqyasında möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparır. Uğurlu və qətiyyətli siyasət, həyata keçirilən dövlət proqramları və irimiqyaslı layihələr Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına təkan verməkdədir".

**Deputat qeyd etdi ki, Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu real ifadədə 3,7 dəfə artıb. Bu, son iki onillikdə qlobal miqyasda əldə olunan ən yaxşı iqtisadi nailiyyətlərdən biridir:** "Ötən 21 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 31 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3700 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən ixrac 16,1 dəfə artmışdır. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 256 manat təşkil etmişdir. Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı iqtisadi inkişaf tam təmin olunub. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 8 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 72 milyard dolları keçib. Bu dövr ərzində ölkəmizdə sərmayələrin ümumi həcmi 310 milyard ABŞ dollarından çoxdur və onlardan 200 milyard dolları qeyri-enerji sektoruna yatırılıb.

Beynəlxalq arenada Azərbaycan müstəqil siyasəti ilə seçilir. Qoşulmama Hərəkatına sədrlik çərçivəsində ölkəmizin pandemiya dövründə göstərdiyi qlobal həmrəylik nümunəsi Azərbaycanı beynəlxalq aləmdə daha da tanıdıb. Azərbaycanın müasir dövrdə beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, həmçinin COP29 və digər mötəbər konfransların keçirilməsi ölkəmizin dünya miqyasında imicini daha da möhkəmləndirib. Ən əsası Prezident İlham Əliyev bütün fəaliyyəti boyu xalqına arxalanıb, xalqının maraqlarını hər şeydən üstün tutub. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyətli rəhbərliyi sayəsində Azərbaycan son 21 ildə sabitlik və inkişaf modeli kimi dünya səviyyəsində nüfuz qazanan bir dövlətə çevrilib".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# Əmək haqqı və pensiyalar artdı - süni qiymət artıran işbazlar isə...

## Ekspert: “Süni qiymət artımı varsa, sahibkarların məhsulu haradan əldə etmələrinə diqqət etməliyik”

**Ölkədə əmək haqqı və pensiyaların artdığını eşidən işbazlar artıq süni qiymət artımlarına start veriblər. Həm də bayram öncəsi olmasından sui-istifadə edərək, bu planlarını rahatlıqla həyata keçirməyə çalışırlar.**

Qeyd edək ki, əmək haqqı və pensiyalar qismən artırılan kimi, soyğunçu bahalaşma da tüğyan edir.

İqtisadçı ekspertlər burada çıxış yolunu nədə görür? Süni bahalaşma yaradanlarla necə mübarizə aparmaq olar?

Ekspertlərə görə, dövlətin müvafiq qurumlarının, məsələn, İqtisadiyyat Nazirliyi və Dövlət Statistika Komitəsi kimi orqanların bazarda qiymətləri yaxından izləməsi və qanunla tənzimlənməyən sahələrdə sərt nəzarət tədbirləri tətbiq etməsi vacibdir. Həmçinin istehsalçı və distributorlara qarşı sərt audit və şəffaflıq mexanizmlərinin gücləndirilməsi bazarda qiymət manipulyasiyasını önləyir. Rəqabətin az olduğu sahələrdə qiymət manipulyasiyasına rast gəlinə bilər. Dövlət müxtəlif sektorlarda sağlam rəqabət mühitini qoruyub saxlamalı, istehsalçıları və tədarükçüləri bazara daha çox daxil etməli və yüksək monopolistik bazarlarda müdaxilələr etməlidir.



Süni qiymət artımına səbəb olanlarla mübarizə aparmaq üçün ciddi hüquqi tədbirlər görülməlidir. Bu, bazar iştirakçıları arasında “kartelləşmə” (qiymət razılaşmaları) kimi qanunlara zidd fəaliyyətləri cəzalandıran sərt qanun və tənzimləmələrin tətbiqini ehtiva edir.

O da qeyd edilir ki, hökumət və müvafiq qurumlar qiymət artımı ilə bağlı narazılıqları daimi olaraq izləməli və bu barədə ictimaiyyəti məlumatlandırmalıdır. Eyni zamanda istehlakçı hüquqları haqqında təlimatlar verilməli, hüquqi yardımlar təqdim edilməlidir ki, vətəndaşlar haqqını qorumaqda daha səlahiyyətli olsunlar.

Yeri gəlmişkən, Dövlət Statistika Komitəsi dekabrın əvvəlində “İstehlak bazarında qiymətlərin dəyişməsi haqqında” məlumatları açıqlayıb. Qeyd edilib ki, 2024-cü ilin noyabr ayında istehlak qiymətləri indeksi 2023-cü ilin noyabr ayına nisbətən 4,4 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 4,4 faiz, qeyri-qida məhsulları üzrə 2,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 6 faiz artıb. 2024-cü ilin noyabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,7 faiz, yanvar-noyabr aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2 faiz yüksəlib. 2024-cü ilin noyabr ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 1,4 faiz, yanvar-noyabr aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1 faiz artıb.

**İqtisadçı Eldəniz Əmirov mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini bölüşüb:** “Çox təəssüf ki, süni qiymət artımı ifadəsi Azərbaycanda çox vaxt qeyri-adekvat şəraitdə və yanlış kontekstdə işlədilir. Süni qiymət artımı yalnız o hallarda baş verir ki, orada inhisar, alqopoliya var, ya da məhsulun qıtlığı mövcuddur. Yəni bazarda tələbə uyğun olaraq məhsulu təchiz etmək mümkün olmur. Eyni zamanda ciddi vergi artımları, tarif artımları olur, müxtəlif tənzimləmə tədbirləri nəticəsində məhsulun qiyməti artır və bu, istehlakçılara süni şəkildə qiymət artımı kimi görünür.

Hazırda bayram öncəsi yeni vergi artımları və tarif artımları yoxdur. Əmtəə qıtlığı, təchizatın məhdudluğu ilə bağlı problem də yoxdur. Bunlar olmadığı halda ortada inhisar faktoru qalır. Əgər bunlar da yoxdursa, qiymət necə süni arta bilər? Əgər belə faktorlar yoxdursa, onda minlərlə satıcı öz aralarında razılaşa bilərmi ki, pomidorun qiymətini eyni şəkildə qaldıraq? Ya da milyonlarla qəssab bir araya gələrək qiymətləri artırmağa qərar verə bilər? Ya da minlərlə məhəllə marketləri razılaşır ki, yumurtanın qiymətini bu və ya digər şəkildə artırsınlar. Bu, praktikada mümkün deyil. Bu xidməti əhaliyə təklif edən sahibkarların, satıcıların sayı minlərlədirsə, burada süni qiymət artımından söhbət gedə bilməz. Əgər süni qiymət artımı varsa, deməli, bu sahibkarların məhsulu ilkin olaraq haradan əldə etmələrinə diqqət etmək lazımdır. Yəni bu gün marketlərə girməklə, qəssabın qapısını döyməklə və ya pomidor satanların qapısına getməklə süni qiymət artımının qarşısını almaq mümkün deyil. O, bir günlük, ya da bir saatlıq ola bilər. Ancaq minlərlə satıcı məhsulu haradan alır. Dövlət də həmin nöqtələrə fokuslanmalıdır ki, mübarizə daha effektiv olsun.

Bir daha təkrar etmək istəyirəm, əgər süni qiymət artımı olubsa, bu iki ya beş nəfərlə razılaşma ola bilər. Min nəfər necə bir-biri ilə razılığa gələ bilər. Əgər kütləvidirsə, deməli, bu süni deyil. Süni varsa, deməli, problem əsas mənbədədir. Biz bunu idxal məhsullarında çox görə bilərik. Ona görə də idxalın diversifikasiyasına ehtiyac var. Misal üçün, yağın idxalı, imkan vermək lazımdır ki, daha çox sahibkar, daha çox istiqamətdən fərqli şərtlərlə ölkəyə yağ idxal etsin. Bu zaman rəqabət artır və qiymət manipulyasiyası ilə qarşılaşmaq ehtimalı azalır".

Qeyd edək ki, süni qiymət artımının səbəbləri barədə müxtəlif fikirlər səsləndirilir. Bunların əsas iqtisadi, hüquqi və sosial faktorlar səbəbindən olduğu qeyd edilir. Bazarda az sayda dominant tədarükçü və ya satıcı varsa, bu subyektlər birgə qiymətləri manipulyasiya edərək süni qiymət artımlarına səbəb ola bilərlər. Çünki rəqabətin olmaması qiymətləri təbii tələbin və təklifin təsirindən çıxara bilər. Əgər müəyyən bir məhsul və ya xidmət bazarda azdırsa, tədarükçülər bu məhsulun qiymətini süni şəkildə artıraraq bundan qazanc əldə etməyə çalışırlar. Eyni zamanda tələbin çox olduğu dövrlərdə (bayram, tətil və s.) bazardakı bəzi satıcılar qiymətləri artırırlar.

Əgər bir neçə tədarükçü və ya istehsalçı arasında qiymətlər barədə gizli razılaşmalar (kartel razılaşmaları) olarsa, onlar bazara yüksək qiymət tətbiq edə bilərlər. Bu, xüsusilə az inkişaf etmiş iqtisadiyyatlardakı kiçik bazarlarda müşahidə olunur. Dövlətin bazarı doğru tənzimləməməsi və ya qiymətləri idarə etməkdə nəzarətin olmaması bəzi istehsalçıların qiymət artımını süni şəkildə tətbiq etmələrinə imkan yaradır. Məsələn, dövlətin rəqabəti təbliğ etməməsi və bazar ehtiyaclarına uyğun müdaxiləni həyata keçirməməsi həddindən artıq qiymət artımına rəvac verir. Bəzi hallarda, xarici bazarlarda tələb artımı və ya tədarükün azalması idxal olunan məhsulların qiymətinin süni şəkildə artmasına səbəb olur. İxrac məqsədilə daha yüksək qiymətə məhsul satmağın artması yerli bazarda qiymətlərin artmasına təsir edə bilər. Sahibkarlar məhsulun qiymətini süni şəkildə artırmaqla daha yüksək qazanc əldə etməyə çalışır. Bu zaman onlar bazarın ehtiyaclarından artıq tələbat yarada bilərlər, bu da qiymətlərin manipulyasiyasına gətirib çıxarır.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**



## Manatın məzənnəsi artıb

**Bu il dekabrın 1-nə Azərbaycan manatının xarici valyutalara nisbətən nominal effektiv məzənnəsi 107,5 bənd təşkil edib. Bu barədə Modern.az Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir.**

Bu, aylıq müqayisədə 2,1 bənd, ilin əvvəlinə nisbətən 5,5 bənd , ötən ilin eyni dövrü ilə müqayisədə isə 4,7 bənd çoxdur.

Dekabrın 1-nə manatın real effektiv məzənnəsi isə 122,6 bənd təşkil edib. Bu, aylıq müqayisədə 2,8 bənd, ilin əvvəlinə nisbətən 1,2 bənd, illik müqayisədə isə 0,2 bənd çoxdur.

Yeni MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# Suriyada prosesləri Türkiyə Azərbaycanla birgə nizamlayacaq - anlaşma

## İki qardaş ölkə arasındakı iqtisadi və siyasi əməkdaşlıq modeli bu prosesdə birgə fəaliyyətin effektivliyini artıracaq

**Azərbaycan və Türkiyə qardaş ölkə, strateji müttəfiq kimi xarici siyasətini də daim uzlaşdırır. Suriya məsələsində də bunun şahidi oluruq.**

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərkən həmçinin Suriyada Əsəd rejiminin çökməsindən sonra müsbətə doğru irəliləyiş məmnunluqla qeyd edilib, Suriyanın sosial və iqtisadi inkişafı ilə bağlı birgə səylərin göstərilməsi razılaşdırılıb.

Bu prosesdə Azərbaycanın rolu nədən ibarət ola bilər? Hansı tədbirləri ölkəmiz həyata keçirə bilər?

**Deputat Azər Badamov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan və Türkiyə qardaş və dost ölkələr olmaqla yanaşı, həm də müttəfiqdirlər:** "Bu müttəfiqliyimiz həm də beynəlxalq məsələlərdə eyni mövqedən çıxış etməyimiz və birgə səylərimizlə də nümayiş olunur. Belə ki, Suriyada Əsəd rejiminin devrilməsi Türkiyə və Azərbaycana da yeni imkanlar açır. Çünki Əsəd rejimi ermənipərəstliyi ilə seçilirdi və erməni terrorçu qrupları ilə birgə suriyalılara qarşı qətliamlar və qırğınlar törətmişdi. 5 milyondan çox suriyalı qardaş Türkiyədə sığınacaq tapmışdı. Bəşər Əsədin devrilməsindən sonra isə suriyalılar öz doğma yurdlarına qayıdırlar və yenidən yaşayıb yaratmaqla məşğul olurlar. Suriyada qurulan yeni hökumətin dövlətçilik təcrübəsi yoxdur. Türkiyə isə böyük dövlətçilik təcrübəsinə malikdir. Bu baxımdan Türkiyə həm Suriyada dövlət idarəetmə sisteminin yenidən qurulmasında, həm də dağılmış yaşayış məntəqələrinin, müəssisələrinin bərpasında yaxından iştirak edəcək. Azərbaycan da Türkiyə ilə müttəfiqliyini nümayiş etdirərək Suriyada gedən quruculuq işlərində öz dəstəyini göstərə bilər.

Suriya 2,5 trilyon barel təsdiq olunmuş neft ehtiyatlarına malik olmasına baxmayaraq 2011-ci ildən sonra neft sənayesi məhv olunmuş səviyyədədir. Suriyanın həm də müəyyən qədər qaz ehtiyatları da var. Azərbaycan neft- qaz sahəsində böyük təcrübəsi olan ölkədir. Bu baxımdan Azərbaycanla Türkiyə Suriyanın neft-qaz sektorunun yenidən dirçəldilməsində iştirak edə bilər. Yəni Suriya yenidən qurulduğunda ölkələrimizin bir yerdə Suriyanın inkişafına çoxşaxəli töhfələri ola bilər".

**Politoloq Rəşad Bayramov hesab edir ki, Azərbaycanın Suriyanın sosial və iqtisadi inkişafında iştirakı bir sıra səbəblərdən olduqca əhəmiyyətlidir:** "Birincisi, məlumdur ki, Suriya Bəşər Əsəd rejimi dövründə erməni dəstəkçisi qismində çıxış edərək ayrı-ayrı beynəlxalq platformalarda ölkəmizin Ermənistanla bağlı qətnamə və bəyanatlarını bloklayan mövqe ortaya qoyurdu. İndi ölkəmizin Suriyanın inkişafında bu və ya digər şəkildə iştirakı bu ölkənin yeni hakimiyyəti ilə əlaqələrin inkişaf etdirilməsinə mühüm töhfə verəcək.

İkincisi, Suriya məsələsində Azərbaycanın Türkiyə ilə birgə mövqe ortaya qoyması iki ölkənin strateji müttəfiq olaraq xarici siyasətini uzlaşdırdığının göstəricisidir ki, bu da beynəlxalq rəydə Azərbaycan və Türkiyə arasında olan bağlılığın növbəti dəfə nümayiş etdirilməsi baxımından əhəmiyyətlidir.

Üçüncüsü, Suriyada hər nə qədər dini müxtəliflik olsa da, ölkə əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edir və bu ölkə İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Başqa sözlə desək, Suriyaya verilən dəstək İslam dünyasında mövqelərimizin möhkəmləndirilməsi baxımından da əhəmiyyətlidir.

Və ən nəhayət, Suriyada qanı qanımızdan olan türkmən qardaş və bacılarımız var ki, onlara da sosial problemlərin həllində dəstək vermək bizim borcumuzdur.

Müharibədən çıxmış, torpaqlarını işğaldan azad etmiş və Qarabağda misli görülməyən bərpa-quruculuq işləri həyata keçirən ölkə olaraq bizim infrastrukturun, mədəni-tarixi abidələrin bərpası, şəhərsalma, qaçqınların geri qaytarılması ilə bağlı olduqca yaxşı təcrübəmiz var. Odur ki, bu istiqamətdə töhfə vermək imkanlarımız da kifayət qədərdir".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov burada Azərbaycanın türkmən amilini nəzərə almasını olduqca vacib sayır**: "Mövcud şəraitdə Azərbaycan və Türkiyənin Suriyanın yenidən qurulmasında birgə iştirakı həm reallıq, həm də strateji zərurət kimi qiymətləndirilə bilər. Bu yanaşma, eyni zamanda bəyan edilən Turan perspektiv geosiyasi layihəsi baxımından da böyük əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyəni Suriyaya bağlayan önəmli amillərdən biri isə bu ölkədə yaşayan türkmənlərin varlığıdır. Suriyada türkmənlər ikinci böyük etnik qrup hesab olunur və Əsəd rejiminin çökməsində mühüm rol oynayıblar. Suriya türkmənləri Əsəd rejimi və İran tərəfindən dəstəklənən qüvvələrin ciddi təzyiqlərinə məruz qalıb. Türkmənlər eyni zamanda İŞİD və PYD/YPG kimi silahlı qruplaşmaların hücumlarına qarşı mübarizə aparıblar. 2015-ci ildə Bayırbucaq bölgəsində türkmənlər ağır bombardmanlara məruz qalaraq Türkiyəyə kütləvi şəkildə köç ediblər. Yaxşı olardı ki, Azərbaycan gələcək Suriya siyasətində türkmən amilini nəzərə alsın və onların əsas himayəçilərindən birinə çevrilsin. Bu yanaşma, Azərbaycanın bölgədə yumşaq güc amilini artırmaq üçün strateji bir addım ola bilər. Türkmənlərin yaşadığı bölgələrin yenidən qurulmasında Azərbaycanın iştirakı həm geosiyasi mövqeyini gücləndirəcək, həm də türkdilli xalqlar arasında birlik və həmrəyliyi dərinləşdirəcək. Suriyanın yenidən qurulmasında Azərbaycan-Türkiyə əməkdaşlığı xüsusilə önəmlidir. Azərbaycanın Qarabağda həyata keçirdiyi yenidənqurma işləri bu sahədə dəyərli təcrübə təmin edir. Bu təcrübə Suriyanın dağıdılmış infrastrukturunun bərpasında tətbiq oluna bilər. Digər tərəfdən, Azərbaycan və Türkiyə arasındakı iqtisadi və siyasi əməkdaşlıq modeli bu prosesdə birgə fəaliyyətin effektivliyini artıracaq. Azərbaycanın Türkiyəyə etdiyi sərmayələr və Türkiyənin Azərbaycan Ordusunun qurulmasında göstərdiyi dəstək bu iki ölkə arasında uzunmüddətli strateji əlaqələrin möhkəm əsaslara söykəndiyini göstərir. Suriyada birgə yenidənqurma fəaliyyəti, bu əlaqələrin yeni bir mərhələyə keçməsinə imkan yaradacaqdır. Türkmən bölgələrinin yenidən inşasına xüsusi diqqət yetirilməsi Azərbaycanın beynəlxalq arenada nüfuzunu artıraraq, onu bölgədə sabitliyin əsas təminatçılarından birinə çevirə bilər. Beləliklə, Azərbaycanın türkmənlərin hüquqlarını müdafiə etməsi və onların yaşadığı bölgələrin bərpasına töhfə verməsi həm humanitar, həm də strateji baxımdan vacibdir. Bu, eyni zamanda Azərbaycanın Suriya böhranında müsbət bir rol oynamasına və regionda öz mövqeyini daha da möhkəmləndirməsinə şərait yaradacaq".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"



# Əsədi devirən silahlılar bir çətir altında

## Türkiyənin dəstəyi ilə 300 minlik nizami ordu yaradılır və silahlı qruplar ləğv edilərək Müdafiə Nazirliyinə tabe olur

**Suriyada Bəşər Əsəd rejiminin devrilməsində iştirak edən silahlı qruplar özlərini buraxmaq barədə razılığa gəliblər. Nəzərə çatdıraq ki, bu, Türkiyənin "yol xəritəsi"ndə əsas məsələ idi və artıq uğura nail olunub. Silahlı qruplaşmalar Müdafiə Nazirliyinin çətiri altında birləşməyə razılıq veriblər. Bu razılıq Suriyada hakimiyyətin lideri Əhməd-əl Şara ilə silahlı qrupların rəhbərləri arasında görüşdə əldə edilib. Suriyanın baş naziri Məhəmməd əl-Bəşir keçən həftə bildirib ki, nazirlik keçmiş silahlı qruplaşmalardan və Bəşər Əsəd ordusundan qaçan zabitlərdən istifadə edilməklə yenidən strukturlaşdırılacaq. Suriyanın yeni rəhbərliyi Bəşər Əsədi devirən üsyançıların aparıcı simalarından hesab edilən Murhaf Əbu Qəsrəni müvəqqəti hökumətdə müdafiə naziri təyin edib.**

"Yeni Müsavat" xatırladır ki, Suriyada silahlı qruplar dekabrın 8-də Dəməşqə nəzarəti ələ keçirib. Bəşər Əsəd Rusiyaya qaçmağa məcbur olub. Silahlı qruplaşmaların MN-də birləşməsi Suriyada sabitliyin bərpasına səbəb olacaqmı? "Suriyada Türkiyə Silahlı Qüvvələrinin dəstəyi ilə 300 min nəfərlik yeni ordu qurulacaq". Bunu suriyalı general Əhməd Osman "Türkiyə Gazetesi"nə açıqlamasında bildirib. Məlumata görə, Bəşər Əsədin devrilməsindən sonra nizami ordu strukturuna keçməyə hazırlaşan Suriya bütün müxalif qrupları paytaxt Dəməşqə çağırıb. Türkiyənin məsləhətləri və hərbi dəstəyi ilə bir yerə toplanacaq yeni ordudan əlavə, Türkiyə Silahlı Qüvvələrinin 5 kritik nöqtədə hərbçilərinin olacağı bildirilib. Bundan əlavə, Türkiyənin Suriyanın dəniz, hava və quru qüvvələrinin yenidən qurulması prosesinə fəal şəkildə məsləhətçi-ekspert dəstəyi verəcəyi deyilir. Suriyalı general Əhməd Osman türk nəşrinə açıqlamasında təcili olaraq 70-80 min nəfərlik ordu skeletinin formalaşdırılacağını bildirib. Suriya ilə bağlı beynəlxalq danışıqlar proseslərində hərbi nümayəndə kimi xidmət edən general Osman bu yaxınlarda ölkənin yeni lideri Əhməd əl-Şara ilə təkbətək görüşdüklərini qeyd edib.

**Siyasi ekspert Ramiyə Məmmədova**nın sözlərinə görə, Suriyada Əsədi devirənlər Müdafiə Nazirliyinə tabe olurlar. Onun fikrincə, söhbət Azad Suriya Ordusu və "Təhrir-əş Şam" kimi silahlı qruplaşmalardan gedir: "Digər silahlı müxalif güclər də var. Amma YPG və PKK kimi silahlı kürd terror qrupları istisnadır. Ölkədə hələ də İŞİD və PKK problemi qalmaqdadır. Müdafiə Nazirliyinə tabe olduqdan sonra həmin qüvvələr adıçəkilən terror təşkilatlarına qarşı mübarizəyə başlaya bilər. Sözsüz ki, Türkiyənin xüsusi dəstəyi olacaq. Məncə, Türkiyənin nəzarəti altında Suriyada prosesləri ağrısız həyata keçirirlər. Qardaş ölkə sübut edir ki, əlini qoyduğu hər bir işdə müsbət təsir göstərir. Ancaq başqa dövlətlər müdaxilə edəndə böhran yaranır. Türkiyə isə böhranı aradan qaldırır. Zənnimcə, Suriya ordusu yenidən komplektləşdiriləcək".

**Təhlilçi hesab edir ki, Suriyanın milli ordusu formalaşdıqdan sonra genişmiqyaslı antiterror əməliyyatı mümkündür:** "Əsəd rejiminə xidmət etmiş, amma son hadisələrdə döyüşməyən hərbçilərin də orduda xidməti davam edəcək. Putin açıqladı ki, 30 minlik qüvvə silahlı müxalifətlə döyüşmədən geri çəkildi. Həmin silahlı qüvvələr Suriya milli ordusunda xidməti davam etdirəcəklər. Onlar Əsəd rejimindən üz çevirmiş, döyüşmək istəməyən suriyalı əsgərlər idi. Hakimiyyət onlara normal maaş da vermirdi. Hazırda ABŞ Türkiyənin Suriyadakı addımlarını dəstəkləmiş kimi görünür".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"



# İşıqforlu kanalizasiya

Zamin HACI
zaminhaci@gmail.com

**Əmircanda küçədəki Yeni il çilçırağını işıqfora qoşmuşdular və məzəli mənzərə yaranmışdı. Yaşıl işıq yananda dekorasiya parlayırdı, sarıya keçəndə göz vururdu və sairə. Lakin əlaqədar orqanlar işin üstünə düşdülər, toku ayırdılar, hətta xəbərdarlıq da etdilər ki, bir də belə iş görülməsin, çünki işıqfora başqa qurğular qoşmaq yol hərəkətini tənzimləməyə mane olurmuş.**

Nahaq yerə. Niyə mane olsun? Bizdə dəmir yolundan evinə işıq çəkənlər var. Bu Yeni il bəzəyi və işıqfor dueti bəlkə Santa Klausun maral qoşulmuş arabasına yol göstərmək üçün idi.

Ümumiyyətlə, kainatda heç nə itmir, nə də yaranmır, biləsiniz. Hər şey bir-biri ilə əlaqəlidir, harmoniyada yaşanır. Misal üçün, Nərimanov rayon prokurorunun dövlətçiliyimizə tam uyğun Usubov soyadı daşıyan bir müavini vardı, nədənsə keçən il işdən çıxardılar, bu il isə yoldaşın adı maraqlı cinayət işində zərərçəkən qismində gedir. Kimsə dələduzluq edib, 3-4 nəfərin pulunu fırladıb, bunlardan biri də keçmiş müavindir. Qapazlanan məbləğ də az-azlıq deyil, lotu düz 2 milyon 500 min dolları ələ keçirmişdir və bu pulun 945 min dolları həmin Usubovun imiş.

İndi hansısa sarsaq sual verər ki, keçmiş rayon prokuror müavinində 1 milyon dollar haradan idi? Lakin bizim aramızda sarsaqlara yer yoxdur! Şair demişkən: "Olmasaydı cahanda sarsaqlar, Əlbət ki, ac qalardı yaltaqlar". Camaat yolkaya svetofordan işıq çəkir, Qar qıza putyovka alıb Dubaya birgə istirahətə gedir, sən nə qoyub, nə axtarırsan...

Bunlar hamısı təhsildən yaranır. Çox oxuyuruq, başımız şişir. Ona görə də hərdən görürsən mətbuatda başlıq getdi: "Məktəbin direktor müavini mühafizəçinin cinsiyyət orqanını kəsdi".

Fantaziyaya bax. Gör bu adam direktor müavini olana qədər hansı yüksəliş mərhələlərindən, hansı təkamül sınaqlarından keçmişdir. Öldürüb, doğrayıb, aparıb haradasa basdırıb. Necə ki, hazırda təhsil ocaqlarımız bizim xəyallarımızı, arzularımızı doğrayıb basdırmaqla məşğuldur. (Sanki bir az kəskin oldu, yola verin, getsin. Yazıda həmişə Dubay şokoladı olmur ki. Hərdən Meksika istiotu, Hindistan kobrasının zəhəri, nə bilim, Avstraliya hörümçəyinin tüpürcəyi də lazımdır. Əks halda, müəllif oxuculara qoşular, xorna çəkib fil qulağında yatışarıq, işıqforlar əldən gedər).

Baş rolda Robin Uilyamsın oynadığı "Arzular hara aparır" adlı film var. Orada qəhrəman intihar etmiş arvadının ardıyca cənnətdən cəhənnəmə yollanırdı. Allaha şükür, bizdə vəziyyət hələ o dərəcədə dramatik deyil və qəzetimizin əməkdaşı təzəlikcə "Həzi Aslanov" metrosu tərəfə yollanmış, orda küçəyə axan kanalizasiya suları barədə reportaj hazırlamışdı. Reportajdan bir cümlə məni çox təsirləndirdi, çünki deyir iki gündür su yola axır, lakin baxan yoxdur.

İki gün. Təsəvvür elə. Artıq buna da dözmürlər. Halbuki mən Biləcəridə, düz dəmiryol vağzalında bir kanalizasiya axıntısı görürəm, yalan olmasın, iki ildir dayanmadan oradadır. Hətta arada Amazon çayının suyu azaldı, lakin o kanalizasiyanın suyu qurumadı. Vağzal ərazisində göllənən çirkab suları oradan dəmir yoluna axır, şəhərimizin qonaqlarını nəcasət iyi ilə, cəsarətlə qarşılayır! Nəcis çayının bəzi hissələrində öz fauna və flora aləmi olan gölməçələr əmələ gəlmişdir. Sakinlər süni göllər üzərindən tullanaraq olimpiadaya hazırlaşır. Lakin bu, kiminsə vecinədirmi? Su-kanal idarəsi artıq hara tabe olduğunu da qarışdırıb. Vağzalın müdiri isə böyük ehtimalla "Anna Karenina" romanını oxuyur, çirkabı kəsməyə vaxtı yoxdur.

Kanalizasiya sularını vağzalda parovoza doldursan, qatarın sürəti artar. Məncə, belə ixtiraçı ideyalarımızla biz milli "İlon Mask" yetişdiririk.

Yaxud çirkab suları ilə işıqforu sulasaq, bərəkətli, GMO-suz, kərə ətirli foton məhsulu əldə etmək olarmı?

Yazını məşhur əmircanlı şairimizin işıqfor haqda şeirindən bir bəndlə bitirirəm: "Dünya qəfil işıqlansa, Görərdik kimin əli, kimin cibindən çıxır". (Guya oğurluq ancaq qaranlıqda olur).




# Paşinyan bədnam qrupun ləğvi üçün hazırlığa başladı - detallar

## Erməni analitikə görə, İrəvan Bakının növbəti tələbini təmin etməyin bünövrəsini qoydu; **hüquq müdafiəçisi:** "Azərbaycanın bu diplomatik qələbəsi da uzaqda deyil"

**"Nikol Paşinyanın 1994-cü ildən bəri Bakı ilə danışıqların yalnız Qarabağın Azərbaycana qaytarılması məsələsi üzərində aparıldığı barədə bəyanatı ATƏT-in Minsk Qrupunun buraxılması üçün zəmin hazırlamasıdır". "Yeni Müsavat" qeyd edir ki, bunu erməni politoloq Qriqor Balasanyan deyib.**

"95% əminəm ki, bu bəyanatlarla Paşinyan Minsk Qrupunun buraxılması üçün hazırlıqlara başlayır. Bu, həm də Prezident İlham Əliyevə Ermənistanın onun növbəti tələbini təmin etməyə hazır olduğuna işarədir". Paşinyan sosial şəbəkə səhifəsində 1994-cü ildən atəşkəs sazişi bağlanandan sonra danışıqlar prosesinin yalnız Qarabağın Azərbaycana geri qaytarılması ətrafında getdiyini yazıb. Ermənistan baş nazirinin sözlərinə görə, danışıqların başqa məzmunu olmayıb və bütün digər proseslər yalnız daxili siyasi məqsədlər üçün istifadə edilib. Ermənistanın hakim "Vətəndaş müqaviləsi" partiyasından olan deputat Armen Xaçatryan bildirmişdi ki, Minsk Qrupu yalnız sülh müqaviləsi imzalandıqdan sonra buraxılmalıdır.

Bu ilin fevralında Münhen Təhlükəsizlik Konfransında iştirakı zamanı Prezident İlham Əliyevin ATƏT-in fəaliyyətdə olan sədri İan Borqun görüşü olub. Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda ATƏT-in Minsk Qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacib olduğunu bildirərək, ATƏT çərçivəsində büdcənin də daha məqsədyönlü və vacib layihələrə istiqamətləndirilməsinin önəmini qeyd edib. Bununla yanaşı, Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində bir daha bu mövzuya toxunub.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadənin** "Yeni Müsavat"a dediyinə görə, Minsk Qrupu gorbagor olub, onun de-yure demontajı qalıb. Hüquq müdafiəçisi prosesin buna doğru getdiyini müşahidə edir və Minsk Qrupunun komadan çıxacağını gözləmir: "Bundan sonra həmsədrlik institutunu reabilitasiya etmək mümkün olmayacaq. Ermənistan hakimiyyəti reallıqları dərk etməkdədir. Sadəcə, bunun həyata keçməsi üçün ATƏT də addım atmalıdır. Əgər həmsədr ölkələr fakt qarşısında qalacaqlar. İrəvan ümid edir ki, regionda yeni proseslər cərəyan edə bilər və yenidən hansısa şanslar yaranar. ABŞ və Fransanın xüsusi dəstəyini alan Paşinyan iqtidarına elə gəlir ki, Minsk Qrupu sülh sazişində rol oynaya, Azərbaycana hər hansı təzyiqlər edilə bilər. Ancaq bunlar gecdir və Ermənistan sülh sazişini Azərbaycanın tələbləri çərçivəsində imzalamağa məcburdur".

**Ç.Qənizadə Minsk Qrupunun tezliklə buraxılacağını gözləməsə də, prosesin buna doğru inkişaf etdiyini düşünür:** "Sülh sənədindən sonra Minsk Qrupunu ləğv etmək lazım deyil, indi bu addım atılmalıdır. Sülh sazişinə qədər bu prosesi uzatmaq cığallıqdır. Bəlkə sülh müqaviləsi 3 il sonra bağlanacaq? Ermənistanın oyun oynadığı göz qabağındadır. Ona musiqini sifariş verənlər isə Yelisey sarayındadır. Minsk Qrupu əhəmiyyətini itirib, Rusiya da dağıldığını elan edib. Çətin ki bir araya gələ bilsinlər. Azərbaycan buna ehtiyac da duymur və rədd edir. Bizə belə bir format lazım deyil. Torpaqlarımızı işğal altında saxlamaqda onların az rolu olmayıb. Kasprşik və digərləri bölgəni kurorta çevirmişdilər. Bu qrup münaqişənin həllində vasitəçi kimi heç bir fayda verməyib".

**Həmsöhbətimizin fikrincə, Paşinyan hadisələrin gedişatını dəyərləndirməyi bacarmalıdır, bilməlidir ki, İlham Əliyev kimi məharətli siyasi xadim qarşısında tab gətirə bilməyəcək:** "O baxımdan, Azərbaycan növbəti diplomatik qələbəsini qazanacaq - gec, ya tez Minsk Qrupu rəsmən buraxılacaq. Bu zəfər çox da uzaqda deyil. Azərbaycan dövləti olduqca ağıllı, ədalətli, beynəlxalq hüquqa söykənən, məntiqli və əsaslı arqumentlərlə siyasət yürüdür. Bizim Ermənistana qarşı heç bir iddiamız, haqsız tələbimiz yoxdur. Azərbaycan deyir ki, konstitusiyanı dəyiş, oradan Qarabağ iddianı yığışdır, Minsk Qrupundan əl çək, gəl sərhədləri dəqiqləşdirək, demarkasiya işləri aparaq, blokadada olan yolları açaq, gediş-gəliş olsun, iqtisadiyyat canlansın. Burada İrəvana yönəlik hər hansı pis təklif varmı? Ermənistan Azərbaycanın irəli sürdüyü təkliflərin qədrini bilməli və yekun sülh sənədinin imzalanması üçün zəruri olan bütün addımları atmalıdır".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"



# Nikolun koronavirus testi yenə müsbət çıxdı

**Ermənistanın baş naziri Nikol Paşinyanın koronavirusa yoluxması bir daha təsdiqlənib. Modern.az xəbər verir ki, bu barədə Paşinyanın özü sosial şəbəkə hesabında bildirib.**

"COVİD testim yenə pozitiv çıxdı. Sağalana qədər bəzi məhdudiyyətlərlə çalışacağam", - baş nazir deyib.

COVİD testinin müsbət çıxması səbəbindən Ermənistanın baş naziri Nikol Paşinyan Sankt-Peterburqa Avrasiya İqtisadi İttifaqının (AİI) sammitinə gedə bilməyib.

Yeni Müsavat
N 235 (8608) 26 dekabr 2024

**Avropa İttifaqının (Aİ) Ermənistanda Azərbaycanla sərhəd zonasına yerləşdirilmiş missiyası faktiki olaraq sülhə əngəl olan amillərdən biridir. Görünən budur ki, Aİ həmin o qanunsuz və əsassız missiyanı nəinki geri çəkmək niyyətindədir, əksinə, formatını daha da genişləndirir.**

# Mənfi məqsədli “Aİ Plus” missiyası - sülhə daha bir əngəl

## Aİ missiyasının mandatının uzadılması ilə bağlı Makron planını dəstəkləməsi Ermənistana baha başa gələ bilər - Bakıdan xəbərdarlıq

Əlbəttə, Bakı bunu ciddi şəkildə müşahidə edir və reaksiyalar da adekvatdır.

“Son dövrlər baş verən proseslər onu göstərir ki, Avropa İttifaqının Ermənistandakı missiyası 5-10 il müddətinə qalacaq”. Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev ilin yekunlarına dair mətbuat konfransında bildirib. Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədindəki missiyasının fəaliyyətinə toxunan mərkəz rəhbəri Kanadanın ona qoşulması ilə onun “Avropa İttifaqı Plus” formatına keçdiyini söyləyib: “Sərhəd zonasında heç bir üçüncü dövlətin qüvvələri olmamalıdır. Hazırda Ermənistan-Azərbaycan sərhədindəki missiya "Avropa İttifaqı Plus" formatına çevrilib. Son dövrlər baş verən proseslər onu göstərir ki, Avropa İttifaqının Ermənistandakı missiyası 5-10 il müddətinə qalacaq. Ermənistan istəyir ki, həmin missiyanın fəaliyyətini uzatsın". F.Şəfiyev əlavə edib ki, rəsmi İrəvan hazırkı mövqeyini davam etdirsə, 2025-ci ildə sülh müqaviləsinin imzalanması qeyri-real görünür.



Azərbaycan bir neçə dəfə ən yüksək səviyyədə Ermənistana və onun himayədarlarına Aİ missiyası ilə bağlı xəbərdarlığını edib. Xüsusilə də bu missiyanın mülki adında, əslində casus şəbəkəsi olduğu şübhə doğurmur. Eyni zamanda Aİ-nin missiyasına Kanadanın qoşulması artıq bölgədə NATO-nun olduğunu göstərir. Ermənistan bununla da təhlükəli oyunlarını davam etdirmiş olur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cari il oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunmuşdu. Prezident qeyd etmişdi ki, Brüssel Ermənistanla Azərbaycan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə danışıqların uğurla keçirildiyi bir məkan olub və həqiqətən orada mühüm irəliləyişə nail olunub. “Lakin əfsuslar olsun ki, Ermənistan tərəfi Brüssel prosesi adlanan bu prosesi davam etdirməmək qərarına gəldi. Ancaq hər bir halda bu, çox yaxşı nəticə və təcrübə verən müsbət proses idi”, dövlətimizin başçısı bildirmişdi. Prezident İlham Əliyev bildirmişdi ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərində etimadsızlıq yaradan məsələlərdən biri də sərhəddə dırnaqarası “Avropa müşahidəçilər missiyasının” müddətinin bizim razılığımız olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılmasıdır. **Sitat:** “Buna nə ehtiyac var idi?! 2022-ci ilin oktyabrında Praqada Azərbaycan ona razılıq vermişdi ki, bu missiya 2 ay orada qalsın və istefaya çıxmış məhdud sayda hərbi zabitlərdən ibarət olsun. Lakin bu missiyanın müddəti uzadıldıqda bizimlə heç kim məsləhətləşmədi. İndi də əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Missiya üzvlərinin davranışı, necə deyərlər, "binokl diplomatiyası" heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi. Dövlətimizin başçısı bildirdi ki, biz Avropa İttifaqı ilə təmaslarda bu məsələni qaldıracağıq".

Bundan sonra Ermənistanda səfərdə olan Polşa prezidenti Andjey Dudanın Azərbaycanla şərti sərhəddə getməsi, Arazdəyən istiqamətində, Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının heyəti ilə görüş keçirməsi də bu qurumun bölgə ilə bağlı planlarından xəbər verir. Yaxın zamanlarda Avropa İttifaqı Şurasına sədrlik edəcək Polşa prezidentinin bu addımı təbii ki, etirazla qarşılandı. Azərbaycan hesab edir ki, Ermənistanla danışıqlar ikitərəfli formatda aparılmalı və şərti sərhədlərdə hər hansı üçüncü qüvvə olmamalıdır. N.Paşinyan isə hesab edir ki, delimitasiya prosesi başa çatdırılanadək Aİ missiyası ölkəsində qala bilər. Bu da rəsmi İrəvanın destruktiv mövqeyidir və sülhü uzaqlaşdırır.

Prezident İlham Əliyev “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına mane olan əsas səbəblərdən biri kimi Avropa İttifaqının Ermənistandakı müşahidəçilərini göstərib. Bununla da dövlət başçısı Aİ missiyasını şərt olaraq irəli sürüb.

Məlum olduğu kimi, 2025-ci ilin yanvarında Avropa İttifaqı missiyasının Ermənistanda mandatı başa çatır. 209 nəfərlik missiyaya növbəti dəfə mandat verilməsinə cəhdlər göstərilir ki, Azərbaycan da bunun qəti əleyhinədir. N.Paşinyan isə özbaşına deyil, ona bu missiyanın başında dayanan Makron təzyiqlər göstərir.

Mənfi məqsədli “Aİ Plus” missiyasının Ermənistanın Azərbaycanla sərhədində saxlanılmasının arxasında hansı məkrli planlar dayanır? Bu missiya niyə genişləndirilir və bu beynəlxalq hüquqların pozulması deyilmi?

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Avropa İttifaqının missiyasının Ermənistanda 5, ya 10 il qalacağını zənn etmir:** “Aİ missiyası daha qısa müddətdə Ermənistanı və bölgəni tərk etmək məcburiyyətində qalacaq. Çünki qalmalarına ehtiyac da yoxdur. Düzdür, sayları artırılıb. Amma əgər sərhədlər müəyyənləşirsə və keçmiş illərdən fərqli olaraq, şərti sərhədlərdə sakitlikdirsə, atəş səsləri eşidilmirsə, ümumiyyətlə, Aİ missiyasına ehtiyac qalmır. Üstəgəl, Azərbaycanın Ermənistanla sülh sazişini imzalamasının şərtlərindən biri də məhz budur ki, həmin missiya Ermənistandan çıxarılmalıdır. Çünki bu missiyadan Azərbaycan əleyhinə də istifadə olunur. Bu isə bölgədə gərginliyi daha da artırır ki, məntiqlə Avropa İttifaqının maraqlarına cavab vermir. Ona görə də mən hesab edirəm ki, missiyanın 5-10 il uzadılması mümkün görünmür. Çünki belə olarsa, bölgədə gərginlik daha da artacaq. Halbuki Azərbaycan və Ermənistan sülh danışıqlarını intensivləşdiriblər və sülh sazişinin mətninin haradasa 90 faizi razılaşdırılıb”. **E.Şahinoğlu hesab edir ki, gələn il sülh sazişinin imzalanması üçün münbit şərait yaranacaq:** “Bir şərtlə ki, Ermənistanda konstitusiya dəyişikliyi olsun. Ondan sonra isə ümumiyyətlə, Avropa İttifaqının missiyasına ehtiyac qalmayacaq. Necə ki, Minsk Qrupunun fəaliyyətinə ehtiyac yoxdur. Minsk Qrupu de-fakto yoxdur. Eləcə də Ermənistandakı Aİ missiyasının vaxtının uzadılması məntiqli olmayacaq”.

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru, hüquqşünas Sahib Məmmədov bu fikirdədir ki, Avropa İttifaqının Ermənistanın Azərbaycanla olan şərti sərhəd xətti yaxınlığında yerləşdirdiyi “mülki missiya” adlanan qüvvələrin məqsədi heç də regionda davamlı sülhün bərqərar olunmasına xidmət etmir:** “Fransanın lobbiçiliyi ilə yaradılmış bu missiya genişlənməkdə davam edir. Əlbəttə, bu qüvvələrin Cənubi Qafqazda yerləşdirilməsinin məqsədi genişdir. İlk növbədə bu kiçik kontingentin regionda olması artıq Aİ-nin Rusiyanın əsas forpostu olmuş və hələ də bəzi problemlərə baxmayaraq, forpost olaraq qalan Ermənistan ərazisində yerləşdirilməsinə bir başlanğıc kimi baxılır. Rusiyanın Ermənistandan hərbi, siyasi və iqtisadi baxımdan sıxışdırılması fonunda bu missiyanın statusu, mandatı və dislokasiya müddəti artırıla bilər. Digər əsas məqsəd sürətlə silahlandırılmaqda olan Ermənistanın şərti sərhəddə törədəcəyi silahlı təxribatlara Azərbaycanın cavabını qeydə almaq və bunu öz bildikləri kimi rəsmiləşdirərək Ermənistana Beynəlxalq Cinayət Məhkəməsində "Azərbaycanın Ermənistan ərazilərində müharibə cinayətləri törətməsi" kimi saxta ittihamlar irəli sürməsinə “əsas” yaratmaqdır". **S.Məmmədov da bu missiyanın bölgəyə sakitlik gətirməyəcəyi qənaətindədir:** “Bir sözlə, Ermənistan Cənubi Qafqazda qonşu dövlətlərə qarşı, o cümlədən Azərbaycan, Rusiya, Türkiyə və gələcəkdə İrana qarşı planların platsdarmına çevrilməkdədir. Ola bilsin ki, Ermənistan hələlik manevr edir. Avropadan, ABŞ-dan siyasi, hərbi və maddi dəstək alır və sonra ənənəsinə sadiq olaraq onlara qarşı da dönüklük nümayiş etdirəcək. Bu, artıq geosiyasi vəziyyətin dəyişməsindən asılı olacaq. Rusiya-Ukrayna münaqişəsinin nəticələri də Ermənistanın hazırkı "şaxələndirilmiş" xarici siyasətinin dəyişməsinə gətirə bilər".

Gözləyək, görək Azərbaycan Prezidentinin xəbərdarlığının ardınca İrəvan hansı mövqeni tutacaq? Minsk Qrupunun qovulmasından sonra Aİ missiyasını qoruyub-saxlamağa xidmət edən bu siyasət bölgədə gərginliyi artıran faktorlardandır və bu cığallığı Ermənistanın başında çatlaya bilər.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**



## MDB-yə üzv ölkələrin dövlət başçılarının sammiti keçirilib

**MDB-yə üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi sammiti keçirilib. APA-nın Rusiya bürosu xəbər ki, Sankt-Peterburqda keçirilən sammiti Rusiya prezidenti Vladimir Putin açaraq Qazaxıstanda baş vermiş təyyarə qəzasında həlak olanların və yaralananların ailələrinə başsağlığı verib.**

Daha sonra Rusiya prezidenti MDB çərçivəsində əməkdaşlığın səviyyəsindən danışıb. Putin MDB ölkələrinin ümumi ÜDM-nin 2024-cü ilin sonuna kimi 4,7% artacağını söyləyib. Onun sözlərinə görə, MDB daxilində milli valyutalarla hesablaşmaların payı 85%-i ötür.

Putin MDB-də könüllülərin və qeyri-kommersiya təşkilatlarının beynəlxalq assosiasiyasının yaradılmasını və hər il könüllülərin qurultaylarının keçirilməsini təklif edib. O, Rusiyanın MDB ölkələrinin hərbçilərinin Qırmızı Meydandakı Qələbə Paradında iştirakına ümid etdiyini söyləyib.

YENİ MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# TikTok-da əxlaqlı mühit yaratmaq mümkün olacaqmı - nə etməli...

## Ekspert: "Cəmiyyətdə maarifləndirici, sosial layihələri artırmaq lazımdır"

**TikTok sosial şəbəkəsi bütün dünyada cəmiyyətlərin narazılıq etdiyi platformadır. Bir çox ölkələr bu platformada heç bir dəyərin qorunması mexanizminin olmaması səbəbindən onu bloklayıblar. Azərbaycanda da TikTok-dan ciddi narazılıqlar var. Xüsusilə əxlaqi dəyərlərə zidd səhifələrin günbəgün artması müşahidə edilir. Təbii ki, hüquq-mühafizə orqanları məsələyə biganə deyil.**

Məlum olduğu kimi, Daxili İşlər Nazirliyinin keçirdiyi əməliyyatla TikTok sosial şəbəkəsində müxtəlif adlar altında əyləncə yarışları təşkil etməklə əxlaqsızlığı təbliğ edənlər saxlanılıb.

Rəsmi məlumata görə, tiktokerlərin iştirakı ilə təşkil olunan yarışmalarda baş verənlər canlı yayımlanıb. Cəmiyyətdə birmənalı qarşılanmayan bu hərəkətlərlə bağlı aparılan araşdırmalar çərçivəsində "emin_resad" adlı TikTok səhifəsinin idarəçiləri Abdullayev Emin və Rəşad qardaşları, "azerzahid6669966" adlı səhifənin idarəçisi Azər İsmayılov, İlhamə Elşadqızı və digərləri polis əməkdaşları tərəfindən saxlanılıblar.

Qeyd edək ki, narazılıqlara səbəb olan canlı yayımların sponsorları da müzakirələrə səbəb olub. Sponsorlar arasında məşhur restoranlar, tibb müəssisələri və digər şirkətlər var.

Məsələnin maraqlı tərəflərindən biri də hüquqi baxımdan onların necə cəzalandırılacağıdır. Hüquqşünaslar bununla bağlı müxtəlif fikirlər söyləyir. **Hüquqşünas Əkrəm Həsənov bildirib ki, məsələ ilə bağlı qanunvericilikdə dəyişiklik etmək lazımdır:** "Əxlaqsızlıq geniş məfhumdur. Nəinki internetdə, sosial şəbəkələrdə, hətta mənim fikrimcə, televiziyalarda da əxlaqsızlıq təbliğ olunur. Hərənin məsələyə öz baxışı var. Mənə görə orada göstərilənlərin də xeyli hissəsi əxlaqsızlıqdır. Buna görə konkret meyarlar olmalıdır. Yaxşı olardı ki, qanunvericiliyimizdə dəyişiklik edib, məsələni dəqiqləşdirək ki, sabah belə hadisələrin qarşısını alaq".

Hüquqşünas sözügedən tiktokerlərin vergidən yayınma ehtimalını da istisna etməyib.

Şübhəsiz ki, gələcəkdə də əxlaqsızlığı təbliğ edənlər tapılacaq. Bu baxımdan onları kifayət qədər sərt cəzalandırmaq üçün qanunvericilikdə hansı dəyişikliklərə ehtiyac var?

İnzibati metodlar istənilən effekti verəcəkmi? TikTok-da əxlaqlı mühit yaratmaq üçün hansı maarifləndirici tədbirlər, yaxud məhdudiyyətlər həyata keçirmək olar?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** deyir ki, son vaxtlar TikTok sosial şəbəkəsi üzərindən əxlaqsızlığın təbliği ilə bağlı görüntülər həddən artıq çoxalıb.

"Artıq o həddə çatıb ki, tiktokerlər telekanallar kimi studiya açırlar və oradan əxlaqsızlığı təqdim edirlər. Gənclərin tərbiyəsini pozurlar və gələcəyimizə zərbə vururlar. Olduqca ciddi məsələdir. Əxlaqsızlığı təbliğ etmək cinayətin ağır formasıdır. Tiktokerlər qanunvericilikdə olan boşluqdan peşəkarcasına yararlanırlar. Düşünürlər ki, ən pis halda inzibati metodlarla: cərimə və ya qısa müddətli həbslə canlarını qurtaracaqlar və bundan sonra çirkin əməllərini davam etdirəcəklər. O cür canlılara çıxan qadınlar və kişilər bu xalqın övladları deyil. Bəlkə də Avropada da bu cür ləyaqətsiz hərəkətlər edilmir. Qanunvericilikdə mütləq dəyişiklik edilməlidir. Cinayət məsuliyyəti yaradan hal olmalıdır. Dırnaqarası kişiciklər, əxlaqsız qadınlar bir neçə gün sonra azad olunacaqlar və davam edəcəklər. Onların fəaliyyəti qanunla məhdudlaşdırılmalıdır. Milli Məclisin deputatları, ölkənin hüquq-mühafizə orqanlarının rəhbərləri təcili Azərbaycanın Cinayət Məcəlləsinə dəyişiklik etsinlər və əxlaqsızlığı bu cür təbliğ edənləri cinayət məsuliyyətinə cəlb edən yeni maddəni təklif etsinlər. Bunu çox operativ şəkildə, yaxın iki ayda qanunvericiliyə bu maddəni gətirib yaramaz, ləyaqəsiz, əxlaqsız qadın və kişiləri cinayət məsuliyyətinin müvafiq maddələri ilə cəzalandırmağa ehtiyac var. Əks halda, bu insanlar hansısa inzibati tədbirlə əməllərindən çəkinməyəcəklər".



**Sosial bloger, tiktoker Vüsal Yusifli də mövzu ilə əlaqədar fikirlərini bölüşüb:** "Bu şəxslərə qarşı inzibati tədbirləri tətbiq etməyin ciddi faydası yoxdur. Əfsuslar olsun ki, bizdə intellektual səviyyəsi aşağı olanların canlı yayımlarına daha çox tələbat var. Çünki onların hamısı şou xarakterlidir. Bizim cəmiyyət isə şouya düşkündür. Mənim kimi elmi bilgilər paylaşan tiktokerlərin canlı yayımlarında 300-400 nəfər olur, amma bayağı şou edənlərin 4-5-10 min izləyicisi var və minlərlə hədiyyə göndərirlər. Bunu görən gənc də deyir ki, oxumaq nəyə lazımdır ki, tiktokerlik edib pul qazanaram da. Hoppanıb qışqıracağam və hədiyyə alacağam.

Bu şəxslər törətdikləri əməllərin gələcək nəsillərə vurduğu ziyandan xəbərdar deyillər. Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində əxlaq normaları ilə bağlı konkret maddələr yoxdur. Tiktokerlərin əksəriyyətinin qeyri-etik ifadələrə, əxlaqsız və təhqiramiz davranışlara görə həbs olunduğu xəbərlərini oxuyuruq. Bu cür hallara görə Cinayət Məcəlləsi dəyişməli və yenilənməlidir.

Ən yaxşı çıxış yolu bu insanlara dəstəyi azaltmaq, əvəzində isə cəmiyyətdə maarifləndirici, sosial layihələri artırmaq lazımdır. Təəssüf ki, biz belə tiktokerlərdən danışmaqla da onları trendə salırıq. Onlar uşaqlarımız üçün nümunəvi obraza çevrilirlər".

❑ **Şahanə RƏHİMLİ,**
**Musavat.com**

# Palma yağının idxalını artırdıq - çox ölkə imtina edir, Azərbaycanda isə..

## Həkimlər deyir zərərlidir, ekspertlər isə düzgün növdən istifadəni vacib sayır

**2024-cü ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana 57 milyon 960 min ABŞ dolları dəyərində 48 min 947.6 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilib. Dövlət Statistika Komitəsinin hesablamalarına görə, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici həcm ifadəsində 7.4% və ya 3 min 377 ton, dəyər ifadəsində isə 10.7% və ya 5.6 milyon ABŞ dolları artıb. 2023-cü ilin ilk 10 ayında Azərbaycana 52 milyon 342 min ABŞ dolları dəyərində 45 min 570 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilib.**



Hesabat dövründə palma yağının 1 kiloqramının orta idxal qiyməti 2 manat təşkil edib və Malayziyadan 23 min 179 ton, İndoneziyadan isə 25 min 768 ton gətirilib.

Xatırladaq ki, son 30 ildə marqarin istehsalında trans yağların əsas əvəzedicisi rolunu oynayan palma yağı yeyinti sənayesi, xüsusilə də qənnadı məmulatları, dondurma, şokolad, çips istehsalçıları tərəfindən geniş istifadə edilir. Eyni zamanda bütün dünyada marqarin istehsalında da palma yağından geniş istifadə olunur. Bu ilin 10 ayında Azərbaycanda 40 min 853 ton marqarin istehsal edilib ki, bunun da 1009 tonu ixrac edilib.

Əksər ölkələrdə palma yağının idxalına, istifadəsinə məhdudiyyətlər tətbiq edilir. Avropa İttifaqı 2018-ci ildən palma yağı ilə istehsal olunan məhsulların dayanıqlı olmasını tələb edir. Eyni zamanda 2020-ci ildən etibarən bərpa olunan enerji istehsalında palma yağının istifadəsi tədricən məhdudlaşdırılır.

Fransa və Belçikada palma yağı ehtiva edən məhsullardan bəzilərinin istehlakını məhdudlaşdırmaq üçün vergi tətbiq ediblər. Norveç isə 2017-ci ildən palma yağı ilə istehsal olunan bioyanacağın idxalını tədricən dayandırmağa başlayıb. İsveçdə isə əksər supermarketlər palma yağı ehtiva edən məhsulların satışını dayandırıb.

Bir çox ölkələrin imtina etdiyi palma yağından bizdə niyə geniş şəkildə istifadə edilir? Yeri gəlmişkən, Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri tərəfindən aparılan təhlil dünyanın 23 ölkəsində palma yağı istehlakının artması ilə ürək xəstəliklərinin çoxalmasını müəyyən edib. Həkimlər palma yağının ateroskleroz əmələ gətirən qandakı "pis xolesterini" artırması ilə bağlı məlumat veriblər. Onlar həmçinin palma yağı sənayesinin ətraf mühitə ciddi zərər vurduğunu qeyd ediblər.

Ekspertlər də illərdir palma yağının zərərləri barədə xəbərdarlıq edirlər. Qeyd edilir ki, palma yağı təxminən 50%-dən çox doymuş yağ ehtiva edir. Bu, onun həddindən artıq istehlakı vəziyyətində ürək-damar xəstəlikləri, yüksək xolesterol və damar tutulması riskini artırır. Palma yağı yüksək istilikdə (qızartmada) istifadə edildikdə trans yağlar əmələ gətirə bilər. Trans yağlar infarkt və diabet riskini artırır. Enerji baxımından zəngin olsa da, qida dəyəri aşağıdır. Həddindən artıq palma yağı istehlakı artıq çəki və piylənməyə səbəb ola bilər. Palma yağı qızdırıldıqda (xüsusən təkrar emalda) GE (qlisidil efirlər) və 3-MCPD (monoxlorpropanediol) adlı maddələr əmələ gələ bilər. Bunlar bəzi araşdırmalara görə kanserogen təsir göstərir. Doymuş yağlar insulinin təsirini zəiflədərək şəkərli diabet riskini artıra bilər.

Yerli mütəxəssislərinə görə palma yağları kosmetik məhsulların hazırlanmasında istifadə olunursa, zərərsizdir. Palma yağı əgər transa çevrilmirsə, hidrogenlə püskürdülüb doydurulmursa, tərkibinə rəngləndirici qatqılar vurulmursa, süni kərə yağına çevrilmirsə, o zaman faydalı ola bilər. O da miqdar nəzərə alınmaqla istehlak olunmalıdır. Eyni zamanda digər bitki yağlarını da trans yağa çevirib istehlak etmək yolverilməzdir. Palma yağını rafinə etmədən istehlak etmək mümkün deyil. Onun gərək rəngini və qoxusunu dəyişsinlər, belə olanda isə temperatur 250 dərəcəyə qədər qalxır. O da qeyd edilir ki, yeganə yağ zeytun yağıdır ki, yüksək temperaturda trans yağa çevrilmir. Palmanı 250 dərəcəyə qaldırıb doydurmaq istəyəndə artıq hidrogen bağlarının yeri dəyişir və həmin yağ trans yağa çevrilir.

**İstehlakçıların hüquqlarının müdafiəçisi Eyyub Hüseynov "Yeni Müsavat"a mövzu ilə bağlı fikirlərini deyib:** "İki cür palma yağı hazırlanır. Dənəsindən qida üçün hazırlanan yağ və gövdəsindən hazırlanan sənaye üçün yağdan söhbət gedir. Qida üçün tam yararlı olan dənəsindən hazırlanan yağ Avropa və digər bazarlarda satılır. İsveçrə kimi ölkələrdə hətta uşaqların qidasına da qatılır. Azərbaycanda da idxal olunur. Azərbaycana gətirilən qida yağları şübhəsiz ki, tam standartlara uyğundur və Qida Təhlükəsizliyi Agentliyinin nəzarətindədir, heç bir təhlükəsi yoxdur. Sadəcə, MDB məkanında bu yağa qarşı böyük antireklam aparılır ki, bu bazara daxil olmasın. Təəssüflə qeyd edirəm ki, bütün etiketlərin üzərinə bütün yaxşı və pis xüsusiyyətləri yazılmaqla nə üçün satışda yoxdur. Sadəcə, yağların üzərində spred olduğu qeyd edilir, palma yox, bitki yağı kimi qeyd edirlər. Palma yağı qadağan olunmamalıdır, qida üçün olanı istifadə oluna bilər".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# YDM-lərdəki qanunsuzluqlar dövlətin diqqətində - nəzarət gücləndiriləcək

## Ekspert: "Yanacaq doldurma məntəqələrində satılan yanacağın keyfiyyəti ilə bağlı monitorinqlər aparılmalıdır"

**Yanacaq doldurma məntəqələrində (YDM) yanacağın keyfiyyətsizliyi, kəsilməsi və digər neqativlər uzun illərdən bəri müzakirə olunan məsələdir. Sürücülər vaxtaşırı su qarışmış benzindən, dizeldən, habelə yanacağın az vurulmasından şikayətlənirlər. Əksər hallarda bu faktlar öz təsdiqini tapır.**

Məsələ o yerə çatıb ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində yanacaq məhsullarının istehsalı, idxalı, topdan və pərakəndə satışı ilə məşğul olan sahibkarlarla maarifləndirici görüşlərə başlayıb. Bu haqda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti məlumat yayıb. Bildirilib ki, tədbirlər zamanı yanacaq məhsullarının istehsalı, idxalı və topdansatışını həyata keçirən sahibkarlıq subyektlərinə yanacaq məhsullarının keyfiyyət göstəricilərinə dair qanunvericiliyin tələbləri izah edilib. Həmçinin yanacaq məhsullarının pərakəndə satışını həyata keçirən sahibkarlıq subyektləri ilə yanacaqdoldurma məntəqələrində satılan avtomobil yanacaqlarının keyfiyyəti və istifadə olunan ölçmə vasitələrinin yanacağın həcmini düzgün ölçməməsi ilə bağlı istehlakçılardan daxil olan şikayətlər barədə ətraflı müzakirələr aparılıb.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində yanacaq məhsullarının istehsalı, idxalı, topdan və pərakəndə satışı fəaliyyəti ilə məşğul olan sahibkarların iştirakı ilə maarifləndirici görüşlər keçirilib.

İstehlakçıların standartlara cavab verən məhsul əldə etmək hüquqlarının təmin edilməsi məqsədilə yanacaq məhsullarının istehsalı, idxalı və topdansatışını həyata keçirən sahibkarlıq subyektləri ilə keçirilən görüş zamanı satılan yanacaq məhsullarının hər partiyasının keyfiyyətini təsdiq edən sənədlə müşayiət olunması, məhsulların satışı zamanı topdan alıcılara yanacağın keyfiyyətini təsdiq edən müvafiq sənədlərin təqdim edilməsi, yanacağın daşınması və saxlanması zamanı standartların və normativlərin tələblərinə əməl edilməsi ilə bağlı qanunvericiliyin tələbləri izah edilib.

Yanacaq məhsullarının pərakəndə satışını həyata keçirən sahibkarlıq subyektləri ilə keçirilən görüş zamanı isə yanacaqdoldurma məntəqələrində satılan avtomobil yanacaqlarının keyfiyyəti, istifadə olunan



ölçmə vasitələrinin yanacağın həcmini düzgün ölçməməsi və digər məsələlər barədə istehlakçılardan daxil olan şikayətlərlə bağlı ətraflı müzakirələr aparılıb, istehlakçıların aldıqları malların keyfiyyətini və həcminin düzgün ölçülməsini təsdiq edən sənədlərlə tanış olmaq hüququna malik olduğu bildirilib.

Həmçinin istehlakçılara satılan yanacağın həcminin düzgün müəyyən edilməsi məqsədilə məntəqələrdə tipi təsdiq edilmiş, yoxlamadan keçirilmiş və metroloji norma və qaydalara cavab verən ölçmə vasitələrindən istifadə edilməsi və qanunvericiliyin digər tələbləri sahibkarların diqqətinə çatdırılıb.

Eyni zamanda sahibkarlara istehlakçı hüquqlarının qorunması, müştəri məmnuniyyətinin təmin olunması və qanunvericiliyin tələblərinə ciddi əməl olunması ilə bağlı tövsiyələr verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Ekspertlər qeyd edir ki, yanacağın keyfiyyətsiz olması sürücülərin avtomobillərinin texniki vəziyyətini pozur, mühərriklərdə, yanacaq sistemində zərərlərə səbəb olur. Yanacağa qatqılar və ya saxta maddələr əlavə edilməsi benzin və dizelin normal tərkibinə uyğun gəlməməsi və mühərrikdə uzunmüddətli ziyanlar yaratması ilə nəticələnir. Bəzi yanacaq doldurma məntəqələri yerli və beynəlxalq keyfiyyət standartlarına riayət etmir.

Yanacağın tərkibindəki maddələrin miqdarı qanunla müəyyən edilmiş parametrlərdən çox və ya az ola bilər. Bu cür pozuntular benzin və dizel maddələrini istifadə edən avtomobillərin ekoloji vəziyyətini pozur və təhlükə yaradır. Yanacaq doldurma məntəqələrinin avadanlıqları, məsələn, yanacaq ölçmə sistemləri və yanacaq doldurma nasosları vaxtında təmir olunmayan və ya işlək vəziyyətdə olmayan cihazlar ola bilər. Yanacaq doldurma məntəqələrinin infrastrukturunda sızmalar və ya yanacaq itkiləri qeydə alına bilər. Ümumiyyətlə, avadanlıqla bağlı nasazlıq, yanacaq doldurulması zamanı partlayış və ya digər təhlükələrə səbəb ola bilər.

Bir çox hallarda yanacaq doldurma məntəqələrində istifadə edilən nasoslar düzgün işləməməsi səbəbindən, bəzən müştəriyə daha az yanacaq verilir. Təbriq olunan şişirdilmiş qiymətlər və ya nasoslarda olan qüsurlar istehlakçıları zərərə uğradır.

Mütəxəssislər onu da qeyd edirlər ki, yanacaq doldurma məntəqələrinin altında saxlanılan yanacaq çənləri standartlara uyğun deyil və təhlükəsizlik tədbirləri düzgün şəkildə yerinə yetirilmir. Çənlərdə sızmalar və ya yanacaq təhlükəsi yaranarsa, bu böyük faciə ilə nəticələnə bilər. Yəni əgər yanacaq doldurma prosesində təhlükəsizlik tədbirləri görülməzsə, məsələn, partlayış və ya yanğın riski arta bilər.

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb:** "Yanacaq doldurma məntəqələrinə nəzarəti artırmaq lazımdır və eyni zamanda paralel olaraq, vaxtaşırı yanacaq doldurma məntəqələrində satılan yanacağın keyfiyyəti ilə bağlı da monitorinqlər aparılmalıdır. Qəbul olunmuş yanacaq standartlarına uyğun olmayan yanacağın satılmasına görə müvafiq qanunvericiliyə əsasən həmin şəxslər və yaxud şirkətlər məsuliyyətə cəlb edilməlidir. Çünki bu, artıq xroniki hal alıb və biz görürük ki, mütəmadi olaraq sürücülər benzinin keyfiyyəti ilə bağlı narazılıqlarını bildirirlər, sübut olaraq hətta onların video çəkilişləri olur. Daha sonra bu sahədə çalışan ustaların da fikirlərini, rəylərini alırıq və görürük ki, həqiqətən də bəzi yanacaq doldurma məntəqələrində standartlara uyğun olmayan yanacaq satılır. İndi burada o qatqılar bilərəkdən edilir, yoxsa yağış suları oraya qarışır və sairə - bunların araşdırılmasına ehtiyac var.

Biz isə sürücülərə məsləhət görürük ki, əgər yanacağın keyfiyyəti ilə bağlı tərəddüd edirlərsə, bu zaman onların tam hüququ var. Bu hüququ onlara Azərbaycan Respublikasında "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun verir. Sürücülər yanacağı doldurmazdan öncə onun keyfiyyətini yoxlamaq üçün hər hansı bir qaba tökülməsini və keyfiyyətinin yoxlanmasını xahiş edə bilərlər. Yəni gözəyarı baxaraq və təxminən müəyyən edərək yanacağın səviyyəsini, həmçinin qoxusuna əsasən keyfiyyətini müəyyən etmək mümkündür. Bunu xahiş edə bilərlər, istənilən plastik qaba yanacağı tökərək yoxlayıb ala bilərlər. Bu, onların tam hüququdur".

**Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



## 5 dərəcə şaxta, yağış, külək - xəbərdarlıq

**Dekabrın 26-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Musavat.com xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.**

Qeyd edilib ki, gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi səhər cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 4-7° isti, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu olacaq. Nisbi rütubət 75-85 % olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-7° isti olacaq.

YENİ MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# Avropanın qaz anbarları sürətlə boşalır - gərgin durum

## Gələn il qaz bazarında şərtlər necə dəyişəcək?

**Avropa İttifaqının qaz anbarlarında qazın həcmi sentyabrın sonundan dekabrın ortalarına qədər 19 faiz azalıb. "Financial Times" Avropa qaz operatorları assosiasiyasının məlumatlarına istinadən yazır ki, bu, son üç il ərzində maksimum istifadədir. Əvvəlki iki ildə eyni dövrdə havanın temperaturunun artması və qiymət artımı ilə əlaqədar müəssisələrdən tələbin azalması səbəbindən anbarlarda ehtiyatların azalması 10 faizdən az olub.**

Aİ-nin qaz anbarları hazırda 75 faiz doludur ki, bu da son on ilin orta göstəricisindən bir qədər yüksək olsa da, 2023-cü il dekabrın ortalarındakı 90 fazilik həddən ciddi şəkildə aşağıdır. FT qeyd edir ki, Avropa Asiya alıcıları tərəfindən artan rəqabət fonunda LNG idxalını azaldıb. Dekabrda terminallardan Avropa qaz ötürmə sisteminə LNG daxilolmaları son üç ildə bu ayın ən aşağı göstəricisidir. Hazırda maye qazın yenidən qazlaşdırılması və daha sonra Avropa boru kəmərlərinə vurulması gücü maksimumun 44 faizi ilə yüklənib.

Son 2 ildə avropalılar isti qış və aşağı sənaye tələbi sayəsində qaza qənaət edə bildilərsə, bu il vəziyyət dəyişib. Buna ilk növbədə hava şəraiti səbəb olub. Bu qış havalar əvvəlki 2 ildəkindən daha tez və daha kəskin soyuqlaşıb, şaxtalı günlərin sayı artıb. İkincisi, günəş və külək enerjisi istehsalı üçün əlverişli olmayan tutqun və durğun günlərin sayı da artıb. Belə günlərdə qaz elektrik enerjisi istehsal edən yeganə mənbəyə çevrilir.

Bütün bunların fonunda yanvarın 1-dən Rusiyadan Ukrayna üzərindən boru qazı nəqlinin dayandırılması Avropa üçün heç də yaxşı perspektiv vəd etmir. Doğrudur, Ukrayna üzərindən qaz alan əsas ölkələrdən biri olan Avstriya artıq digər mənbələrdən təminatı yoluna qoyaraq noyabrdan Rusiya qazının alışını dayandırıb. Eyni zamanda Macarıstan Türk axını ilə qaz alışını davam etdirmək imkanı qazanıb. Lakin aydın məsələdir ki, illik həcmi 15 milyard kubmetrdən çox olan qaz nəqlinin tam dayanmasının Aİ-nin ehtiyatlarına mənfi təsiri mütləq olacaq: Asiyadan alışların sürətlə artdığı maye qazın Avropadakı alıcıları da artır. Bu isə anbarlardan istifadənin daha da sürətlənməsini stimullaşdıracaq.

Bu ilin 11 ayında sanksiya təzyiqlərinə və Aİ-nin Rusiya qazından asılılığı azaltmaq cəhdlərinə baxmayaraq, Rusiyadan qaz alışı 18-20 faiz artıb. Bunu Rusiya baş nazirinin müavini Aleksandr Novak açıqlayıb. Onun sözlərinə görə, 11 ayda Avropa Rusiyadan təxminən 50 milyard kubmetr maye(LNG) və boru qazı alıb.

"Eurostat"ın məlumatlarına görə, Aİ oktyabr ayında Rusiyadan 2023-cü ilin noyabr ayından bu yana maksimum məbləğdə, yəni 701,5 milyon avro dəyərində LNG alıb. Bu məbləğin yarıdan çoxu Fransadandır. 2024-cü ilin yanvar-oktyabr aylarının nəticələrinə əsasən, Avropa İttifaqı Rusiyadan boru kəməri qazına görə 2023-cü ilin eyni dövründəki 6,9 milyard avroya qarşı 6 milyard avrodan çox, Rusiya LNG-si üçün isə 6,7 milyard avroya qarşı 5,7 milyard avro ödəyib.

Rusiya prezidenti Vladimir Putin illik mətbuat konfransında Ukrayna üzərindən qaz nəqlinə dair yeni müqavilənin olmayacağını elan edib. Ukrayna prezidenti Volodimir Zelenski də yeni müqavilənin imzalanmasının mümkün olmadığını açıqlayıb. Bu isə prosesin geridönməz xarakter almasından xəbər verir.

Ötən il Avropada istilik mövsümü 2024-cü il martın 31-də başa çatıb. O zaman anbarlarda 58,34 faiz qaz vardı. Bu il Avropanın anbarlardan istehlakı artırması gələn il üçün ciddi risklər yaradır. Qarşıda qışın ən soyuq hava şəraiti olan yanvar-fevral ayları var. Bu isə istilik mövsümünün sonuna anbarlarda ehtiyatların 40 faizə qədər azalması təhlükəsini yaradır. Belə olarsa, 2025-ci ilin yayında qaz ehtiyatlarının doldurulması prosesi xeyli bahalaşa və mürəkkəbləşə bilər.

Bazarda treyderlər artıq ən pisə hazırlaşırlar: gələn yay çatdırılması üçün qazın qiymətləri qış təchizatı qiymətlərindən daha sürətlə bahalaşır. Bu, bazarların qıtlıq və ehtimal ki, daha çox qiymət artımı gözlədiyinə işarədir.

Bəzi Aİ ölkələri ehtiyatlarını digərlərindən daha tez tükəndirir. Məsələn, Hollandiya qışın əvvəlindən anbarlar qazın təxminən üçdə birini, Fransa isə 28 faizini itirib. Qış uzun və sərt keçsə, belə nümunələr daha çox olacaq.

Noyabrda Avropada qazın orta alış qiyməti 1 min kubmetr üçün 491 dollar təşkil edib, dekabrın ötən dövründə isə təxminən 483 dollardır.

Ukrayna üzərindən nəqlin dayanması ilə yanaşı, Rusiyadan Avropaya maye qaz ixracının da dayandırılması ehtimalı var. Bu, Aİ-nin Rusiyaya qarşı 16-cı sanksiya paketində əksini tapa bilər. Eyni zamanda ABŞ-ın yeni sanksiyalarında da Rusiya maye qazına qarşı bəndlərin olacağı gözlənilir. Belə ki, "The Washington Post"un yaydığı məlumata görə, ABŞ prezidenti Co Bayden səlahiyyətlərinin son həftələrində Rusiyanın enerji sektoruna qarşı genişmiqyaslı yeni sanksiyalar tətbiq etməyi planlaşdırır. Mənbələrin bildirdiyinə görə, belə bir qərarın Rusiya ilə mümkün nizamlanma danışıqları zamanı "seçilmiş prezident Donald Trampın gələcək komandasına daha çox təsir rıçaqları vermək" üçün verilməsi nəzərdə tutulur. Sanksiyaların Rusiya neftini qeyri-Qərb ölkələri ilə daşıyan xarici gəmiləri, habelə hələ də sanksiyalar siyahısına daxil edilməyən Rusiya maye qaz və neft ixracatçılarını hədəf alacağı gözlənilir.



Nəşrin həmsöhbətlərinin fikrincə, mümkün variantlar arasında banklara Rusiyanın enerji resursları ilə əməliyyatları həyata keçirməyə imkan verən lisenziyanın ləğvi də var.

Xatırladaq ki, noyabrın sonunda ABŞ "Qazprombank"a qarşı sanksiyalar tətbiq edib. 2022-ci ildən sonra Rusiya qazı və nefti üçün xarici ödənişlər yalnız bu bank vasitəsilə həyata keçirildi. Bundan sonra Macarıstan və Türkiyə sanksiyaların onlara mənfi təsir etdiyini bəyan edərək, ABŞ-dan Rusiya qazı üçün ödəniş edərkən "Qazprombank"a istisna edilməsini istəyiblər. Ötən həftə ABŞ 3 ay müddətində belə ödənişlər üçün istisna tətbiq edib. Bu isə o deməkdir ki, 3 aydan sonra Rusiyadan qaz alan Türkiyə və Macarıstan ödənişlər üçün başqa və sanksiya rejimini pozmayan vasitə tapmalı olacaqlar ki, bu da real görünmür. Belə variant tapılmasa, Türkiyənin digər qaz satıcılarından, xüsusilə də Azərbaycandan qaz alışını artırmağa çalışacağı şübhəsizdir.

Energetika Nazirliyinin məlumatına əsasən, 2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda 45,8 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 12,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 25,3 milyard kubmetri "Şahdəniz", 1,4 milyard kubmetri "Abşeron" yatağı, 7 milyard kubmetri isə SOCAR üzrə hasil olunub. Qaz istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,8 milyard kubmetr çox olub.

Hesabat dövründə xaricə qaz satışı 22,9 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz çoxdur. Avropaya 11,7 milyard kubmetr, Türkiyəyə 9 milyard kubmetr, Gürcüstana isə 2,2 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 5,1 milyard kubmetr qaz nəql olunub.

Yaranmış vəziyyətdə Aİ-nin yenidən Azərbaycandan qaz alışını artırmaq planına qayıdacağı da istisna olunmur. Brüssel 2022-ci ildə Bakıdan qaz alışının ikiqat artırılmasına dair memorandum imzalasa da, ötən müddətdə əlverişli şərtlər qaz istehlakını azaltdığına görə Azərbaycandan Avropaya qaz daşıyan Cənub Qaz Dəhlizinin genişləndirilməsinə faktiki olaraq əngəl yaradıb. "Fitch Group"a aid olan **"Fitch Solutions"** (FS) şirkətinin ölkə üzrə hesabatına əsasən, Azərbaycandan Avropa İttifaqına (Aİ) illik qaz ixracı həcmini 20 milyard kubmetrə çatdırmaq üçün 18,5 milyard ABŞ dolları tələb oluna bilər. Hesabatda bildirilir ki, Azərbaycanın 2022-ci ildə razılaşdırıldığı kimi, 2027-ci ilə qədər Aİ-yə təbii qaz ixracını ("Şahdəniz" qaz-kondensat yatağının işlənilməsinin ikinci mərhələsi çərçivəsində - red.) iki dəfə artıra biləcəyi bəlli deyil: "Hədəflənmiş 20 milyard kubmetr illik ixrac həcminə çatmaq üçün Azərbaycanın boru kəməri infrastrukturu genişləndirilməlidir - mövcud boru kəmərləri şəbəkəsinin lazımi həcmdə genişləndirilməsi 18,5 milyard ABŞ dollarına başa gələcək".

"Fitch Solutions"un mütəxəssisləri hesab edir ki, Azərbaycan hökuməti və SOCAR Aİ-dən Net Sıfır siyasətinin investisiyaları ortamüddətli perspektivdə dəyərsizləşdirməyəcəyinə dair güclü təminat olmadan Azərbaycan Respublikası Dövlət Neft Fondunun kapitalından (ÜDM-in təxminən 70 faizinə bərabərdir) genişlənmə xərclərini ödəmək üçün istifadə etmək istəmir.

Bildirilir ki, Paris razılaşmalarının yeni karbohidrogen layihələrinə sərmayə qoyuluşu şərtlərinə görə, yaşıl hidrogenin nəqli üçün şərait yaradılmasa, Azərbaycan boru kəməri infrastrukturunun genişləndirilməsini maliyyələşdirməyə kömək edəcək investorlar tapmaqda çətinlik çəkə bilər: "Hidrogen uyğunluğunu təmin etmək üçün boru kəmərinin genişləndirilməsi razılaşdırılarsa, Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa İnvestisiya Bankından, eləcə də digər maliyyə institutlarından maliyyə yardımı ala bilər".

Xatırladaq ki, 2020-ci il dekabrın 31-dən Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya Azərbaycan qazının nəqlinə başlanılıb. İndiyədək TAP-ın ötürücülük gücü 13 milyard kubmetrə qədər çatdırılıb. Bundan əlavə, Türkiyədən Bolqarıstana gedən 3,5 milyard kubmetr gücündə kəmərlə də Azərbaycan qazının ixracı təmin olunub.

Digər tərəfdən, Azərbaycan Aİ-yə qaz ixracını 20 milyard kubmetrə çatdırmaq öhdəliyi götürməyib. 2022-ci ildə imzalanan memorandumda ixracın 2021-ci il səviyyəsindən 2 dəfə çoxaldılması nəzərdə tutulur. Bu isə 16 milyard kubmetr deməkdir və artıq Bakı bu həcmin ixracı üçün şərtləri təmin edib. Bu isə o deməkdir ki, Avropa İttifaqı əlavə qaz istəsə, CDQ-nin genişləndirilməsi üçün zəruri maliyyələşməyə dəstək verməli olacaq...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**





# Pirotexniki vasitələrin satışı ilə bağlı 17 nəfər saxlanılıb

**Paytaxt və bölgələrdə pirotexniki vasitələrin satışı ilə məşğul olan 17 nəfər saxlanılıb. DİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, polis əməkdaşları tərəfindən partlayıcı, tezalışan maddələrin və pirotexniki vasitələrin satışının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.**

Paytaxtın Sabunçu, həmçinin Ağdaş, Beyləqan, İsmayıllı, Ucar, Cəlilabad, Masallı, Zaqatala və Tovuz rayonlarında keçirilən növbəti tədbirlər zamanı yüksək səsyayıcı qabiliyyətə malik pirotexniki vasitələrin gizli şəkildə satışını təşkil edən 17 nəfər müəyyən olunaraq saxlanılıb. Onlardan müxtəlif təyinatlı pirotexniki vasitələr aşkarlanıb.

Faktlarla bağlı həmin şəxslər barəsində toplanan materiallar hüquqi qiymət verilməsi üçün məhkəmələrə göndərilib.

YENİ MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

# Rusiya-Ukrayna müharibəsi uzadılır, yoxsa... - Kremldən Kiyevə yeni ittihamlar

## **Siyasi şərhçi:** ""Qarşılıqlı qazanc" prinsipinə söykənməyən sülh danışıqları maksimalist yanaşma sərgiləyən tərəfin də böyük məğlubiyyəti ilə sonuclanır"

**Trampın Amerikanın növbəti dəfə prezidenti seçilməsindən sonra Rusiya-Ukrayna müharibəsinin bitə biləcəyinə dair proqnozlar verilir. Buna dair nikbin rəylərlə yanaşı, savaşın uzana biləcəyinə dair informasiyalar da dövriyyədədir. Bu arada Kreml belə bir mövqe sərgiləyib ki, Kiyev Ukrayna münaqişəsinin danışıqlar yolu ilə həllinə hazır deyil. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov açıqlayıb. O deyib ki, Rusiya danışıqlara hazırdır: "Ukraynanın danışıqlara hazır olması ilə bağlı heç bir irəliləyiş yoxdur. Moskva Ukraynadakı vəziyyətin danışıqlar yolu ilə həllinə açıqdır, lakin Kiyev buna hazır deyil. Ukraynanın danışıqlara hazır olması ilə bağlı hələlik irəliləyiş olmadığı üçün əməliyyatımızı davam etdiririk. Biz dinamikanı görürük, dinamika öz sözünü deyir: biz irəliləyirik".**

"Ukraynadakı müharibə 2025-ci ildə ya sülh danışıqları, ya da tərəflərdən birinin məğlubiyyəti ilə yekunlaşacaq". Bunu isə Macarıstan mediasına ölkənin baş naziri Viktor Orban deyib. O, Ukraynanın ərazisinin 20 faizini itirdiyini, milyonlarla qaçqının olduğunu qeyd edib. Macar hökumət başçısının sözlərinə görə, adıçəkilən ölkə postmüharibə dövründə nə iqtisadiyyatının bərpasını, nə də digər zəruri işləri müstəqil şəkildə həyata keçirmək iqtidarında deyil. Viktor Orban siyasi karyerasında 2020-2024-cü illərdən daha mürəkkəb dövrü xatırlamadığını söyləyib, bu amili bəzi Qərb liderlərinin təhlükəli fikirlərə ortaq olması ilə əlaqələndirib: "Qərb dünyasında hakimiyyətdə elə adamlar var ki, onlar öz ölkələrini müdafiə etməyə qadir olmayan təhlükəli ideyaları dəstəkləyir. 2020-ci ildə ABŞ-da keçirilən prezident seçkisi Donald Trampı bu postdan məhrum etmək məqsədilə saxtalaşdırılmışdı. Başqa bir nümunə isə Almaniya və Fransa ilə bağlıdır. Almaniyanın ən sabit fikirli kansleri Angela Merkel vəzifədən getdi, Fransa isə özünün ən çirkin niyyətini göstərməyə başladı. Bundan sonra Avropa ilə Rusiya arasında münaqişə vəziyyəti yarandı. Rusiya-Ukrayna müharibəsi 2025-ci ildə ya Rusiyanın, ya da Ukraynanın məğlubiyyəti ilə başa çatacaq. Onu da əlavə edim ki, son 4 il siyasi karyeramın ən mürəkkəb dövrü oldu".

"Ukraynada sülh üzrə danışıqlar 2025-ci ildə başlayacaq".

Bunu isə Rusiya Federasiya Şurasının sədri Valentina Matvienko bildirib. Bu iki fərqli proqnoz və məlumatdan çıxış edərək söyləyə bilərik ki, hazırda çox həssas bir nöqtədir. Mümkündür ki, müharibə uzansın və Ukrayna aylar sonra məğlubiyyətini elan etsin. Bundan sonra Rusiya təbii ki, danışıqlara əngəl olmadığını bildirəcək. Ancaq sülh danışıqları qalib elan edilmədən də mümkün ola bilər, bu halda da müharibə uzana bilər.

**Siyasi şərhçi Heydər Oğuz "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, istənilən sülh danışıqları yalnız "qarşılıqlı qazanc" prinsipinə söykənərsə, uğurlu alına bilər:** "Yəni hər iki tərəf bu sülh danışıqlarında mütləq nəsə qazanacağına ümid etməlidir. Əks halda, bir tərəfə zorla təlqin olunan sülh şərtləri mahiyyət etibarilə kapitulyasiya aktı kimi qəbul olunar, bu da qısa müddətdən sonra daha şiddətli müharibənin başlamasına yol aça bilər. Necə ki, bəşəriyyət bunu I Dünya müharibəsində gördük. Bilirsiniz ki, Müttəfiq qüvvələrlə Almanya arasında 28 iyun 1919-cu il tarixində bağlanan Versal müqaviləsinin ağır şərtləri alman xalqında ciddi əks-reaksiyalar doğurmuş və ölkəyə "xəyanət" kimi qiymətləndirilmişdi. 1920-ci illərdə Almaniyada baş verən iqtisadi və siyasi qeyri-sabitlik faşistlərin hakimiyyətə gəlməsi ilə nəticələnmişdi. Beləcə, Versal müqaviləsi İkinci Dünya müharibəsinin başlanmasının əsas səbəbi kimi tarixə keçmişdir".

**Heydər Oğuzun fikrincə, Versal müqaviləsinin ağır şərtləri həm onun yerinə yetirilməsini çətinləşdirmiş, həm də II Dünya müharibəsinə yol açdığı üçün bir növ Almaniyanın yenidən güc toplaması üçün 20 illik atəşkəs sazişinə çevrilmişdi:** "1919-cu ildən 1939-cu ilə qədər ara verən müharibə yenidən başlamış və itirən təkcə Almaniya olmamışdır. Bu müharibə nəticəsində bütün Avropa ölkələri böyük dağıntılara məruz qalmış, sənayesi tamamən çökmüş, 10 milyonlarla insanını itirmişdi. Nəticədə Avropa qitəsi dünya hegemoniyasındakı mövqeyini ABŞ və Rusiyaya ötürmək məcburiyyətində qalmışdır. Bu mənada "qarşılıqlı qazanc" prinsipinə söykənməyən sülh danışıqları nəinki heç bir tərəfə qələbə qazandırmır, əksinə, maksimalist yanaşma sərgiləyən tərəfin də böyük məğlubiyyəti ilə sonuclanır".

**Siyasi şərhçi hesab edir ki, Ukrayna savaşında Rusiya da məhz "mütləq qazanc" mövqeyindən çıxış edir və bu maksimalist mövqe iki dövlət arasındakı tükəndirmə savaşının uzanmasını şərtləndirir**: "Baxmayaraq ki, Rusiya rəsmiləri sülh danışıqlarına hazır olduqlarını açıqlayır və Ukraynanı bu təşəbbüsü yaxına buraxmamaqda günahlandırırlar. Bununla belə, onların Ukrayna qarşısında qoyduqları tələblər mahiyyət etibarilə I Dünya savaşında müttəfiqlərin Almaniyaya zorla qəbul etdirdikləri Versal şərtlərindən fərqlənmir. Rusiya rəsmiləri də eynilə Versal müqaviləsində olduğu kimi, Ukraynanın parçalanması, bir hissəsinin onlara verilməsi, ordusunun əhəmiyyətsiz qüvvəyə çevriləcək qədər kiçildilməsi, dolayısıyla hərbi sənayesini inkişaf etdirilməməsi, beynəlxalq hərbi blokda yer almaması və s. kimi tələblər irəli sürürlər. Bu da nəticə etibarilə Rusiyanın sülh anlayışının əslində düşmən tərəfin kapitulyasiyası kimi xarakterizə edilə bilər". **Moskvanın Ukrayna savaşına başlayanda da eyni tələbləri və bəhanələri dilə gətirdiyini xatırladan həmsöhbətimiz deyir ki, bu da Rusiyanın 3 illik müharibədən sonra belə, öz mövqeyindən geri çəkilmədiyini göstərir:** "Halbuki sülh sazişlərinin əsas şərti qarşılıqlı güzəştlərə söykənən "ikitərəfli qazanc" prinsipi olmalıdır. Tarix sübut edir ki, qarşılıqlı güzəştlər olmadan qarşılıqlı qazanclar mümkün deyil. Elədirsə, Zelenski basqıları ilə təktərəfli güzəştə əsaslanan kapitulyasiya aktına niyə imza atmalıdır? Deyək ki, Zelenski məcburən bu şərtlərlə razılaşdı, bəs Ukrayna xalqı necə, onu qəbul edəcəkmi? Sanmıram".

Heydər Oğuz hesab edir ki, Rusiyanın arzuladığı "sülh sazişi"nin qarşısında xeyli keçilməz sədlər dayanır: "İlk sədd, qeyd etdiyim kimi, Kremlin irəli sürdüyü şərtlərin ədalətsizliyi və qarşılıqlı güzəşt anlayışından məhrum olmasıdır.

Digər sədd isə sülh sazişinin yalnız Zelenskidən asılı olmayışıdır. Adətən bütün sülh sazişlər onu imzalayan ölkələrin parlamentləri tərəfindən də radifikasiya edilir. Ukrayna Ali Radasının bu cür ağır şərtləri təsdiqləyəcəyi inandırıcı görünmür.

Üçüncü mühüm sədd Ukrayna Konstitusiyasıdır. Böyük ehtimalla Ukrayna Konstitusiyası da digər dövlətlər kimi, ərazilərinin dəyişdirilməsinin hətta referenduma çıxarılmasına belə izn vermir. Deməli, Zelenski sözügedən ağır şərtlərlə razılaşsa belə, əldə ediləcək "sülh sazişi"nin legitim əsası olmayacaq. Legitim əsası olmayan torpaq ilhaqı isə müharibənin bitirilməsinə zəmin yaratmır, sadəcə, münaqişənin yeni mərhələyə keçməsi və tərəflərə öz qüvvələrini yenidən bərpası üçün vaxt qazandırır. Eynilə I Dünya müharibəsinin II Dünya müharibəsi ilə əvəzləndiyi kimi".

**Dördüncü mühüm sədd isə Ukraynanın strateji müttəfiqlərinin, daha konkret desək, Avropa nəhənglərinin mövqeyidir:** "Sirr deyil ki, Avropa ölkələri Ukrayna savaşını təkcə Rusiyanın bu ölkəni işğal etməsi kimi yox, həm də Avropanı ələ keçirmək istiqamətində ilk addımı kimi alqılayırlar. Xüsusilə Şərqi Avropa ölkələri bunu özləri üçün də böyük təhdid kimi görür və işğalla razılaşmaq istəmirlər. Ukraynanın itirilməsi regionla bağlı imperialist maraqları olan Qərbi Avropanı da qorxudur. Məhz bu səbəbdən Fransa, Almaniya və Böyük Britaniya kimi dövlətlər Ukrayna savaşının Rusiyanın xeyrinə bitməsi ilə razılaşmazlar. Prinsipcə, ABŞ da Avropadakı hegemonik üstünlüyünün əldən çıxmasına laqeyd qala bilməz.

Beşincisi, Ukraynanın təbii sərvətləri və münbit torpaqları da ABŞ və Avropa üçün çox dəyərlidir. Öz taxıl istehsalı ilə Avropanın çörək zənbili kimi xarakterizə edilən Ukrayna yeraltı təbii sərvətləri ilə də getdikcə sənaye sahəsində Çinə uduzan Qərb ölkələri üçün əsas ümid qaynağıdır. Mütəxəssislərin fikrincə, Ukrayna otuz trilyon dollarlıq nadir torpaq elementlərinə sahibdir. Gələcəyin texnologiyasının enerji qaynaqları olan bu sərvətlərlə yanaşı, Ukraynanın olduqca böyük miqdarda digər strateji xammal ehtiyatları da var. Təbii ki, Qərb ölkələri bu qədər böyük təbii sərvətləri olan coğrafiyanın əldən çıxması ilə razılaşmazlar. ABŞ-ın məşhur senatorlarından biri Lindsi Qraham bir müddət öncə bunu açıq şəkildə etiraf edərək demişdi: "Ukrayna trilyonlarla dollarlıq böyük qızıl quyusunun üzərində oturub və oranı Rusiyaya verə bilmərik". Qeyd edim ki, Qraham ABŞ-ın yeni prezidenti Donald Trampla eyni partiya mənsubudur və onun üzərində böyük təsiri var.

Ukrayna həm də Qərbin Şərqə açılan qapılarından biridir. Xüsusilə də dünyanın qəlbgahı sayılan Orta Asiyaya yol bu qapıdan keçir, həmin qapının açılması üçün isə Rusiyanın strateji məğlubiyyətə uğraması və parçalanması lazımdır. Ukrayna savaşı, faktiki olaraq, həm də buna xidmət edir".

**Heydər Oğuz məhz bu məntiqə əsaslanaraq bildirir ki, Putin Ukrayna savaşını öz xeyrinə bitirməkdə Donald Trampa güvənməklə növbəti səhvini edir:** "Tramp prezidentdən çox iş adamıdır və Ukraynanın qiymətini Putindən az bilmir. Üstəlik, ABŞ prezidenti olan şəxs belə məsələlərdə dərin dövlətin də mövqeyini mütləq nəzərə almalıdır. Məncə, onun Ukrayna savaşını bitirmək barədə bəyanatları ciddi deyil və münaqişəni növbəti mərhələyə hazırlamağa xidmət edir. Başqa təbirlə desək, ABŞ tərəflərin, o cümlədən Ukraynanın həm insan, həm də təchizat baxımından artıq tükənməkdə olduğunu görür və Trampın sülh təklifi ilə ona yeni nəfəs qazandırmaq istəyir. Yəqin ki, sülh danışıqları bəhanəsi ilə Ukraynadakı ekskalasiyanı bir qədər azaldıb ona və Avropa ölkələrinə daha çox silahlanmaq, yeni hərbi taktikalara keçmək, özünün toparlamaq fürsəti qazandırmağa çalışır. Aradakı vaxtdan istifadə edib Ukraynanın müasir savaş vasitələri və robot silahlarla təchizatına başlaya bilərlər. Bu istiqamətdə indidən müəyyən addımların atıldığı müşahidə edilir. Yeni planda Ukrayna ordusunun ən azı yarısının "robot əsgərlər"lə təchizatının nəzərdə tutulduğunu da gizlətmirlər. Zənnimcə, sözügedən planı həyata keçirə bilsələr, növbəti mərhələdə Ukraynanın canlı itkiləri də azalacaq və müharibəni Rusiyanın tam tükəndirilməsinə qədər davam etdirəcəklər. Mən həm də bu məntiqdən çıxış edərək, Putinin sülh təkliflərini Versal müqaviləsinə bənzədirəm. Putinlə Hitlerin yeganə fərqi ondadır ki, Almaniyanı II Dünya savaşına sürükləyən Versal müqaviləsini Berlinə zorla qəbul etdirən qarşı tərəf - müttəfiqlər olmuşdu. Hitler də ədalətsiz sülh müqaviləsinə qarşı çıxaraq dünyanı atəş çəmbərinin ortasına atdı və nəticədə ən böyük zərbəni Almaniyaya vurdu. Putin isə öz Versalını özü hazırlayır və yenə eyni müttəfiqlərlə kəllə-kəlləyə gəlib atəş çəmbərinin içinə atılır".

❑ **Elşən MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"**



# Yeni Klinika TƏBİB-in tabeliyinə verildi



**Yeni Klinika "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"na daxil edilib.**

Nazirlər Kabineti bu barədə qərar verib.

# Saxta diplom bəlası - çıxış yolu nədir...

## Gələcəkdə diplomlar əhəmiyyətli olmayacaq; qanunvericiliyin sərtliyi problemi həll etmək üçün kifayət deyil



**Ölkənin bitməyən problemlərindən biri də saxta diplom məsələsidir. Əgər əvvəllər belə diplomları ölkədə fəaliyyət göstərən özəl universitetlər (ABU, Təşəkkür və s.) verirdisə, indi xaricdən "idxal olunur".**

Hər il yüzlərlə orta məktəb məzunu "xaricdə təhsil" şirkətləri tərəfindən, yaxud özü birbaşa əlaqə quraraq müxtəlif ölkələrdə fəaliyyət göstərən universitetlərə üz tutur və bir çoxu da sonda saxta diplomla qayıdırlar.

"Təəssüf hissi ilə qeyd edirəm ki, bəzi şəxslər saxta diplomlar əsasında onlayn müraciətlər həyata keçirirlər. Biz belə halları demək olar ki, hər gün aşkarlayırıq".

Bunu **Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) İdarə Heyətinin sədri Tural Əhmədov** "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində deyib. O bildirib ki, hətta 2021-2022-ci illərdə saxta diplomlar əsasında verilən 9 şəhadətnaməni aşkarlayaraq ləğv ediblər: "Bunun aşkarlanması necə baş verdi? Agentliyə edilən müraciətlər üzrə ekspertiza aparılarkən Türkiyə Respublikasının Karabük Universiteti tərəfindən verildiyi iddia edilən 6 diplomun saxta olduğunu aşkarladıq və buna görə cari ildə tanınma ilə bağlı həmin müraciətlərə imtina qərarı verdik. Bu, bizdə ciddi şübhə yaratdığı üçün sözügedən universitetin adından əvvəlki illərdə də verilən diplomları yenidən araşdırdıq və Türkiyənin aidiyyəti qurumlarına sorğu göndərdik".

**Tural Əhmədovun sözlərinə görə, nəticədə 2021-ci ildə 1 nəfərə, 2022-ci ildə 8 nəfərə münasibətdə ümumilikdə 9 nəfərin saxta diplom müraciəti əsasında verilmiş şəhadətnamələr müvafiq əmrlə ləğv edilib:** "Son vaxtlar şəhadətnamələrin saxtalaşdırılması cəhdlərini də görürük və bu çağırışların qarşısını almaq üçün aidiyyəti qurumlarla birlikdə tədbirlər görülür. Bundan əlavə, işəgötürənlər təqdim edilən şəhadətnamələrin həqiqiliyini səhifəmiz üzərindən onlayn yoxlamaq imkanı qazanıblar. Bu kimi halların qarşısını almaq məqsədilə bir daha işəgötürənlərə səslənib müvafiq şəhadətnamələrin həqiqiliyini agentliyin səhifəsindən yoxlamalarını tövsiyə edirik".

**Deputat Ceyhun Məmmədov** "Yeni Müsavat"a şərhində bildirdi ki, dəfələrlə çağırışlar edilməsinə baxmayaraq, yenə də bəzi vətəndaşlar yanlış yola baş vururlar və saxta diplomlarla işə düzəlməyə və ya saxta diplomları dövlət qurumlarında işə düzəlmək üçün istifadəyə və ya dövlət qurumlarında tanıtmağa cəhd edirlər: "Hər kəs anlamalıdır ki, əvvəlki dövrlərlə müqayisədə bu gün texnologiya və imkanlar xeyli inkişaf edib. Əvvəllər belə halları müəyyənləşdirmək daha çox vaxt alırdısa, artıq bu proses xeyli asanlaşıb. Artıq aidiyyəti qurumların platformalarına daxil olaraq, məlumatları dərhal təsdiqləmək mümkündür. Sistemin olmadığı, prosesin tam təkmilləşmədiyi dövrdə bu kimi addımlar atmaq mümkün idi. İndi isə qeyri-mümkündür, yeni çox çətin bir prosesə çevrilib. Artıq Azərbaycanda Elm və Təhsil Nazirliyi yanında agentlik fəaliyyət göstərir ki, xüsusi bir baza yaradıb. Buna görə də hər hansı bir saxtalaşdırma etmək və ya saxta diplomları tanıtmaq olduqca çətin və mürəkkəb bir prosesə çevrilib. Bu səbəbdən vətəndaşlara tövsiyə olunur ki, belə yanlış yollara baş vurmasınlar. Təəssüf ki, hələ də cəmiyyətdə bir qrup vətəndaş var ki, onlar məqsəd və hədəflərinə qeyri-qanuni yollarla çatmağa çalışırlar. Onlar düşünürlər ki, bu yolla nəyəsə nail ola və harasa işə düzələ bilərlər. İndiki dövrdə əsas məsələ bilik və bacarıqdır. Əgər kimsə düşünürsə ki, diplom yetərlidir, bu yanlış yanaşmadır. Gələcəkdə diplomlar o qədər də əhəmiyyət daşımayacaq. Bu fikir o qədər də yaxşı səslənməsə də, bilik və savad əsas meyardır".

**Təhsil eksperti Kamran Əsədov hesab edir ki, saxta diplomların mövcudluğu cəmiyyətin təhsil sisteminə olan inamını sarsıdır, iş bazarında keyfiyyət standartlarını aşağı salır və dövlət qurumlarının şəffaflığına dair ciddi suallar yaradır:** "Bu problemin dərin kökləri, həlli yolları və dünya təcrübəsindən öyrənilən dərslər məsələyə daha geniş baxmağı tələb edir. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun 5-ci maddəsində təhsilin əlçatanlığı, keyfiyyəti və şəffaflığı prinsipləri əsas götürülür. Bununla yanaşı, saxta diplomların geniş yayıldığı mühitlərdə bu prinsiplərin pozulduğu müşahidə olunur. Cinayət Məcəlləsinin 320-ci maddəsinə əsasən, saxta sənədlərin hazırlanması və istifadəsi cinayət məsuliyyətinə səbəb olur. Lakin qanunvericiliyin sərtliyi problemi həll etmək üçün kifayət deyil. Praktikada icra mexanizmləri, institusional nəzarət və ictimai maarifləndirmə çox zəif qalır.

Azərbaycan üzrə dəqiq statistik məlumatlar məhduddur, lakin beynəlxalq tədqiqatlar göstərir ki, dünya üzrə saxta diplomlardan istifadə edənlərin sayı hər il artır. Məsələn, 2020-ci ildə Avropa Təhsil Fondu (ETF) tərəfindən aparılan tədqiqatda qeyd edilir ki, bəzi ölkələrdə iş bazarına təqdim edilən sənədlərin 5-10%-i saxta ola bilər. Azərbaycanda da zaman-zaman saxta diplom qalmaqalları geniş ictimaiyyətin diqqətinə səbəb olmuşdur. Bu hallar təkcə fərdi fırıldaqçılıq aktları kimi deyil, həm də institusional nəzarətin zəifliyinin göstəricisi kimi qəbul edilir".

**İnsanların saxta diplomlara müraciət etmələrinin səbəblərini şərh edən ekspert bildirdi ki, birinci səbəb təhsil müəssisələrinin məzunları iş bazarının real tələblərinə uyğun hazırlaya bilməməsidir:** "Təhsil müəssisələri ilə işəgötürənlər arasında zəif əlaqələr bir çox insanda "diplom yalnız formal tələbdir" təəssüratını yaradır. Bununla yanaşı, yüksək təhsil haqqı, sosial bərabərsizlik və təhsilin əlçatan olmaması da bəzi fərdləri alternativ yollar axtarmağa vadar edir.

Dünya təcrübəsinə baxdıqda, bəzi ölkələrdə bu problemlə uğurla mübarizə aparıldığını görürük. Məsələn, Finlandiyada bütün təhsil müəssisələrinin məzunlarının diplomları vahid milli qeydiyyat bazasında saxlanılır. Bu sistem işəgötürənlərə verilən diplomların orijinallığını saniyələr ərzində yoxlamaq imkanı verir. ABŞ-da "National Student Clearinghouse" adlı platforma ali təhsil müəssisələrinin məlumatlarını işəgötürənlər və dövlət qurumları üçün əlçatan edir. Bu yanaşma yalnız saxta diplomların qarşısını almaqla kifayətlənmir, həm də diplomların keyfiyyətini təsdiqləyir.

İnkişaf etməkdə olan ölkələrdə isə bu problemlə mübarizə üçün daha sistemli yanaşmalar tətbiq olunur. Hindistanda "National Academic Depository" sistemi vasitəsilə diplomlar elektron şəkildə saxlanılır və yalnız səlahiyyətli şəxslər tərəfindən əldə edilə bilər. Bu, həm saxtakarlığın qarşısını alır, həm də sənədlərin təhlükəsizliyini təmin edir.

Azərbaycan təhsil sistemi üçün də belə bir inteqrasiya olunmuş yanaşma zəruridir. Bütün təhsil müəssisələrinin diplomları, qiymət cədvəlləri və digər akademik sənədləri elektron bazada saxlanmalı və dövlət qurumları ilə özəl sektorun istifadəsi üçün əlçatan olmalıdır. Bu baza yalnız yerli deyil, beynəlxalq səviyyədə də təsdiq oluna bilən bir sistem olmalıdır. Belə bir yanaşma həm yerli, həm də xarici işəgötürənlər üçün Azərbaycan diplomlarının etibarlılığını təmin edərdi.

Maarifləndirmə də bu problemin həllində mühüm rol oynayır. Cəmiyyət arasında "diplom yox, bacarıq əhəmiyyətlidir" mesajı daha geniş yayılmalıdır. Təhsil sistemi bacarıqlara əsaslanan yanaşmaya keçid etməli, işəgötürənlər isə işə qəbul prosesində yalnız diplom deyil, eyni zamanda praktiki bacarıqları və təcrübəni əsas götürməlidir. Bununla yanaşı, saxta diplom hazırlayanlara qarşı hüquqi tədbirlər sərtləşdirilməli, ictimaiyyət arasında bu cür əməllərin qanunsuzluğu barədə məlumatlandırma kampaniyaları aparılmalıdır.

Saxta diplomlar yalnız fərdi bir məsələ deyil, bu, cəmiyyətin təhsil sisteminə və dövlət idarəçiliyinə olan inamını sarsıdır. Problemin həlli üçün qanunvericiliyin təkmilləşdirilməsi, elektron sistemlərin yaradılması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və təhsilin keyfiyyətinin artırılması zəruridir. Yalnız bu cür kompleks yanaşma nəticəsində saxta diplomlarla mübarizədə uğur əldə etmək mümkündür".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 235 (8608) 26 dekabr 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Gənclər niyə maşın sevdalısı olub? - ictimai nəqliyyatdan bezginlik, yoxsa...

## Azərbaycan gənclərin maşın sürməsinə görə bir çox ölkələri qabaqlayıb

**Son illər Azərbaycanda gənclər arasında sürücülüyə meyl edənlərin sayı artıb. Xüsusən də ictimai nəqliyyatdakı xaosdan, basabasdan bezənlər tək çarəni şəxsi maşın sahibi olmaqda görürlər. Amma eyni zamanda iş tapmaqda çətinlik çəkən gənclərin taksi sürücülüyünə meyl etməsi ilə bağlı müşahidələr var. Ümumən Azərbaycanda sürücü olmaq istəyənlərin yaş həddi ildən-ilə aşağı düşür. Sürücülük kurslarına bir qayda olaraq gənc qızlar və oğlanlar müraciət edir. Bu da şəhərin tıxacından, taksi firmalarında gördükləri neqativ münasibətdən narazı qalanların tapdığı çıxış yollarından biridir.**



Azərbaycanda taksidə daha çox yaşı 21-dən 35-dək olan gənclər işləyir. Onların sayı yarıdan çoxdur - ümumi sayın 72%-i. Daha az sayı yaşı 36-dan 45-dək olan sürücülər təşkil edir - 20%. Yaşı 66-dan yuxarı olan sürücülərin payına isə cəmi 0,1% düşür.

Taksi sürücülərinin əksəriyyəti şəxsi avtomobillərində işləyir. Çox vaxtı bu, populyar və sınanılmış xarici avtomobillərdir. Birinci yerdə "Mercedes C-class" yerləşib, onunla sifarişləri yerinə yetirənlərin sayı sürücülərin ümumi sayının təxminən 12%-i təşkil edir. Taksi avtomobili qismində daha az "Mercedes E-class" avtomobillərini görmək olar, ona üstünlük verənlərin sayı 9%-dir. Üçüncü yerdə "Opel Astra"dır, onu taksi sürücülərinin 7%-i seçir. Ən populyar taksi avtomobillərinin siyahısına həmçinin "Opel Vectra", "Mercedes 190", "Daewoo Gentra", "Lada 2115" və "Daewoo Nexia" avtomobilləri düşüblər.

Statistika ölkənin 4 şəhəri üzrə təqdim edilib: Bakı, Gəncə, Mingəçevir və Sumqayıt.

Hazırda digərləri ilə müqayisədə nəqliyyat sektorunda iş imkanları daha genişdir. Taksi, şəhərdaxili avtobusların idarəsi üçün tələblər getdikcə artır. Elə şirkətlər var ki, "Uber" özəl taksi xidmətindən istifadə edir. Artıq bu xidmət Azərbaycanda da bir müddətdir ki, fəaliyyətə başlayıb. Burada sürücülük vəsiqəsi və nəqliyyatı olanlar xidmətə cəlb edilirlər. "Uber" özü də iş bazarı və avtomobili xanım idarə edir. Bu kimi faktorlar da əsas rol oynayır. Lakin mən hesab etmirəm ki, sürücülük vəsiqəsini almaq istəyənlərin sayının artması Bakıda tıxac problemini dərinləşdirə bilər. Bütün hallarda paytaxtda nə qədər nəqliyyat vasitəsi varsa, onlar istifadə olunur. Bu avtomobillərin kim tərəfindən necə idarə olunması tıxac probleminin həlli ilə bağlı məsələdə önəmli faktor hesab edilmir. Lakin son illərdə ölkəyə idxal olunan avtomobillərin sayında kəskin azalma var.

Hazırda gənclər arasında da sürücülük vəsiqəsi alanların sayında bir artım var. Amma statistika göstərir ki, sürücülük vəsiqəsi alanların hər biri də öz avtomobilini idarə etmir. Belə ki, bəziləri həvəskar olduğu, bəziləri xımından bir cəlbedici xidmətdir. Hər hansı bir şirkətdə və yaxud dövlət qurumunda fəaliyyət göstərən insanlar var ki, onlar da özəl avtomobil xidmətini təklif edirlər. Belə demək olarsa, onlar öz avtomobillərindən qazanc mənbəyi kimi istifadə edirlər. Bütün bu faktorlar sürücülük vəsiqəsini əldə etmək üçün stimullaşdırıcı amillər hesab oluna bilər. Elə ailələr də var ki, ailənin bütün üzvlərinin sürücülük vəsiqəsi olsa da, ailənin yalnız bir şəxsi avtomobili var. İnsanlarda belə bir yanaşma var ki, ailə olaraq harasa getdikdə, uzaq məsafələrdə bir-birini əvəz etmək mümkün olsun. Yaxud kimsə spirtli içki qəbul edibsə, o öz avtomobilini xanımına verir isə nə zamansa, gələcəkdə maşın sahibi olacaqlarını düşündükləri üçün vəsiqə almağa çalışırlar. Bu baxımdan xanımlar üstünlük təşkil edir. Gənclər, yeniyetmələrin əksəriyyəti 18 yaşı tamam olan kimi, sürücülük vəsiqəsi almaq həvəsinə düşürlər. Onların bir qismi oxuyub imtahan verir və vəsiqəni əldə edir. Amma bu o demək deyil ki, onların hər biri bu vəsiqədən istifadə edir. Bu statistika ilə məsələyə yanaşsaq, hər il sıralarımıza 50 mindən çox sürücü qoşulsa, Azərbaycanda ciddi tıxac problemi yaranar. Paytaxtın küçələrində tıxac əlindən tərpənmək olmaz. Həmçinin bu, nəinki paytaxtda, bölgələrdə də ciddi tıxac problemi yarada bilərlər.

**Hansı ölkə neçə yaşından maşın idarəsinə icazə verir?**

Azərbaycan ərazisindəki yollarda nəqliyyat vasitələrini idarə etmək hüququ 14 yaşdan başlayır. Velosiped və ya arabanı 14, asma mühərrikli velosipedi, moped və A1 altkateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarə 16, A, B, C kateqoriyalarına, B1 və C1 altkateqoriyalarına daxil olan nəqliyyat vasitələrini idarə etmək isə 18 yaşdan sonra mümkündür.

**Maraqlıdır, dünya ölkələrində sürücülük vəsiqələri neçə yaşdan və hansı şərtlərlə verilir?**

Türkiyədə 16 yaşdan moped və motosiklet, 18 yaşdan isə avtomobil sürməyə icazə verilir.

Almaniyada 17 yaşdan müşayiət edən şəxslə, 18 yaşdan isə müstəqil olaraq avtomobil sürmək mümkündür. Yük maşını və ya avtobus üçün isə 21 yaşın olması əsas şərtdir.

Rusiyada sürücülük vəsiqəsi 17 yaşdan verilir. Son aylarda isə 18 yaşından verilməsi təklif edilib.

ABŞ-da isə vəziyyət bir qədər fərqlidir. Burada hər şey əyalətdən asılıdır, minimum 14 yaşdan sonra sürücülük vəsiqəsi almaq mümkündür.

Avstraliyada sürücülük vəsiqəsi 17 yaşı tamam olanlara verilir. 16 yaşdan başlayaraq sürücülük məktəbində oxumaq mümkündür.

Argentina hökuməti 18 yaşdan sonra müstəqil şəkildə avtomobil sürməyə icazə verir. Namizəd sürücülük nəzəriyyəsi və praktikasından əlavə, İspan dilində danışmalı və psixofiziki testdən keçməlidir.

Braziliyada 18 yaşdan etibarən maşın sürməyə icazə verilir. Buna baxmayaraq, senat bu məhdudiyyəti 16 yaşa endirməyi düşünür.

Britaniyada 17 yaşlı şəxslər avtomobil idarə edə bilərlər.

Hindistanda sürücülüyə 16 yaşından motosikletlə, 18 yaşından isə avtomobillə icazə verilir. Lakin bəzi əyalətlərdə bütün icazələr yalnız 20 yaşdan başlayır.

Kanadada əyalətdən asılı olaraq 14 yaşdan 16 yaşa qədər olar sürücülüyə icazə var. Müxtəlif hüquq kateqoriyası mövcuddur, bəziləri üçün 3 ilə qədər təhsil almaq mütləqdir.

Fransada 18 yaşdan etibarən sürücülük vəsiqəsi verilir. Bu istiqamətdə təhsil almağa isə 15 yaşında başlamaq mümkündür. Ancaq sürəti 60 km/saatdan çox olmayan avtomobillər üçün lisenziyasız idarəetmə də mümkündür.

Yaponiyada 16 yaşdan motosiklet, 18 yaşdan isə avtomobil sürməyə icazə var.

18 yaşına çatmamış şəxsin sürücülük vəsiqəsi ola bilməz. Belə şəxsin avtomobil sürərək qaydanı pozması və ağır nəticəli qəza törətməsi Cinayət Məcəlləsinin (CM-in) 263-1-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilər. Lakin CM-in bu maddəsi üzrə məsuliyyətə yalnız yaşı 16-nı keçmiş şəxslər cəlb edilə bilərlər. Deməli, 15 yaşında uşaq qəza törədərək 5 adamı da öldürsə, bu maddə üzrə cinayət məsuliyyətinə cəlb edilə bilməz. Nəqliyyat vasitəsini qaçırma məsələsi isə tamam başqadır. Bu əmələ görə CM-in 185-ci maddəsi cinayət məsuliyyəti nəzərdə tutur. Bu cinayətin subyekti olmaq üçün 14 yaş kifayətdir. Özü də uşaq öz atasının maşınını da ondan icazəsiz sürüb aparsa, bu əməl CM-in 185-ci maddəsinin tərkibini yarada bilər. Deməli, 15 yaşlı uşaq valideyninin avtomobilini qaçıraraq ağır qəza törədərsə, həmin qəzaya görə yox, məhz avtomobili qaçırmaya görə cinayət məsuliyyətinə cəlb ediləcək. Bu halda avtomobilə qəzada 1000 manatdan 7000 min manatadək ziyan dəyərsə, həmin uşaq 2 ildən 5 ilədək, 7000 manatdan çox ziyan dəyərsə, 5 ildən 10 ilədək azadlıqdan məhrum edilə bilər.

## Yerə yaxınlaşan iri asteroidin hansı fəsadları ola bilər - rəy



**Yer kürəsinə nəhəng asteroid yaxınlaşır. Bu barədə NASA-nın alimləri xəbər verib. Bildirilib ki, 2024 XN1 adlandırılan səma cismi Milad bayramı ərəfəsində - 25-26 dekabr tarixində planetimizin yanından keçəcək. Səma cisminin Yer üçün potensial təhlükə olduğu iddia edilir.**

Alimlərin qiymətləndirməsinə görə, əgər bu kosmik obyekt planetimizlə toqquşsa, onun zərbə dalğası bir neçə min nüvə bombasının partlayışına bərabər olar. Buna görə də NASA alimləri səma cisminin hərəkət trayektoriyasını diqqətlə izləyirlər.

Adətən asteroidlər Yerə yaxınlaşanda, yanından keçəndə hansısa fəsadları da olur - təbii fəlakətlər, zəlzələlər də ola bilir. Maraqlıdır, bu asteroid hansı məsafədən keçəcək və hansısa təhlükəsi varmı?

Şamaxı Astrofizika Rəsədxanasının elmi işçisi Səbahəddin Alışov deyir ki, asteroid Yerə heç bir təhlükə yaratmır və təqribən 7, 21 milyon kilometr yaxınlığından keçəcək.

"Bu keçiş saatda 23 milyon kilometr sürətlə olacaq. Hazırda Yerə təhlükə yaratmır. O halda təhlükə olar ki, bu asteroid yerə düşər. Yer atmosferinin yaxınlığından keçməyən göy cisminin təhlükəsi yoxdur. Adətən onlar Yupiterlə Marsın arasında asteroid qurşağında olur. Bəzi hallarda Yerin potensial təhlükəli məsafələrindən keçə bilirlər".

❑ **Şahanə RƏHİMLİ,**
**Musavat.com**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 235 (8608) 26 dekabr 2024

## Bunları bilirsinizmi?

Dekabr

* Dinamitin hazırlanmasında yer fındığından istifadə olunur.
* Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.
* Las-Veqas kazinolarında saat olmur.
* Qarışqa digər canlılarla müqayisədə ən böyük beyinə malikdir. Təbii ki, bədəni ilə müqayisədə.
* Məşhur nağıl yazarı Hans Xristian Anderson demək olar ki, bir sözü belə savadlı yaza bilmirmiş.
* Bazar ertəsi günləri 25% bel travması və 33% ürək tutması halları daha çox baş verir.
* Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.
* Orta hesabla insan həyatının iki həftəsini işıqforun rəngini dəyişməsini gözləməyə sərf edir.
* İnsan çay içməyə daha tez vərdiş edir, nəinki narkotikə.
* Tualet kağızı 1857-ci ildə icad edilib.
* Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.
* Xokkey şaybasının atılma sürəti saatda 160 km. çata bilər.
* Orta statistik hesabla bankomat il ərzində 250 dollar səhv hesablayır - müştərilərinin xeyrinə.
* İl ərzində insan qabırğası 5 milyon dəfə hərəkət edir.
* Dəvədəlləyi yeganə həşəratdır ki, başını çevirə bilir.
* Dünyada baş verən 7 oğurluqdan yalnız birinin üstü açılır.
* Dünyanın heç bir dilində dizin arxa hissəsinin adını verən bir söz yoxdur.
* ABŞ əhalisinin yalnız 55%-i Günəşin ulduz olduğunu bilir.
* Son 4 min il ərzində insan hər hansı bir yeni heyvan növünü əhliləşdirməyib.
* Dünyada hər 2 dəqiqədən bir zəlzələ baş verir.
* Normal insanın yuxuya getməsi üçün orta hesabla 7 dəqiqə vaxt tələb olunur.

## Bayram günlərində necə qidalanmaq lazımdır?

**Bayram günləri həm ləzzətli yeməklərin dadını çıxarmaq, həm də sağlamlığımıza diqqət etmək üçün balans yaratmağı tələb edir.**

Çeşidlər çox olduqda, hər yeməkdən az miqdarda götürərək dadına baxın. Beləcə, həddindən artıq yeməkdən qaça bilərsiniz.

**Günə sağlam səhər yeməyi ilə başlayın**

Bayram süfrəsindən əvvəl yüngül və balanslı bir səhər yeməyi edin. Bu, gün ərzində həddindən artıq yemək istəklərini azaldacaq.

**Su içməyi unutmayın**

Bol su içərək nəmlənməni təmin edin. Şirin içkilər və qazlı sular yerinə təmiz su və ya bitki çaylarına üstünlük verin.

**Şirniyyatlara nəzarət edin**

Şirniyyat istehlakında həddi aşmayın. Şirniyyatlardan kiçik porsiyalar götürərək balansı qorumağa çalışın.

**Tərəvəzlərə yer verin**

Süfrənizdə salatlara və tərəvəz yeməklərinə üstünlük verin. Bu, həm doyurucu olacaq, həm də həzmi asanlaşdıracaq.

**Yavaş yemək vərdişi**

Yeməkləri tələsmədən yeyin. Beynin toxluq siqnalını daha tez qəbul etməsi üçün yemək vaxtını uzadın.

**Hərəkətdə olun**

Bayram günlərində az da olsa fiziki fəaliyyətə vaxt ayırın. Məsələn, yeməkdən sonra qısa bir gəzinti həzmi yaxşılaşdıracaq.

Bayram süfrələrinin dadını çıxarmaqla yanaşı, sağlamlığınızı qorumağı unutmayın. Balansı qoruyaraq həm ləzzətdən, həm də sağlamlıqdan zövq ala bilərsiniz!

# Barmaqlarla keçəlləşməni necə təyin etmək olar?



**ABŞ-li təcili yardım həkimi Co Uittinqton 2D-4D kimi tanınan ikinci (şəhadət barmağı) və dördüncü (adsız barmaq) barmaqların uzunluqlarının nisbətinə əsasən androgenetik alopesiya - keçəlləşmə riskini proqnozlaşdırmağın mümkün olduğunu deyib. Bu barədə "Daily Mail" nəşri yazıb. Çində elm adamları tərəfindən aparılan bir araşdırma göstərib ki, şəhadət barmağı ilə müqayisədə adsız barmağı daha uzun olan kişilərdə keçəlləşmə riski yüksəkdir. Bu saç tökülməsi, saç follikullarının androgenlərə - steroid kişi hormonlarına artan həssaslığının nəticəsidir. Adətən bu halda kişilər başın orta və ön hissəsində saçlarını itirirlər.**

Tədqiqatda 18-24 yaşlarında 240 könüllü iştirak edib. Məlum olub ki, 2D-4D nisbəti ən aşağı olanların saç tökülməsi ehtimalı altı dəfə çoxdur. Bu bədən əlaməti testosteronun ana bətnində saçın inkişafına artan təsiri ilə əlaqələndirilir. Zaman keçdikcə, hormonal təsirləri səbəbindən saç follikulları daha həssas olur və "qurumağa" başlayır, bu da keçəlləşməyə gətirib çıxarır.

# Portuqaliya sahillərində inanılmaz tapıntı - qızıl və gümüş yüklü 250 gəmi



**Portuqaliya sahillərində təxminən 250 xəzinə yüklü gəmi hələ də dənizin dibində qalır.**

Sensasiyalı bəyanatla portuqaliyalı arxeoloq Aleşandre Monteyru çıxış edib. Onun sözlərinə görə, təkcə 1589-cu ildə Lissabonun cənubunda, Troya yarımadasının yaxınlığında batan ispan qaleonu "Nossa Senhora do Rosario"da 22 ton qızıl və gümüş ola bilər. Monteyru bildirib ki, Madeyra, Azor adaları və ölkənin kontinental hissəsinin sahillərində baş verən gəmi qəzalarının əksəriyyətini müəyyən etməyə imkan verən unikal məlumat bazası yaradıb. Onun araşdırmalarına görə, XVI əsrdən bəri batan gəmilərin sayı təxminən 8 620-dir. Qeyd edək ki, Portuqaliya XV-XVI əsrlərdə Cənubi Amerika, Afrika və Şərqi Hindistanda dənizaşırı əraziləri olan ən böyük müstəmləkə dövlətlərindən biri idi. Portuqaliya müstəmləkə imperiyasının tədricən dağılması nəticəsində Braziliya, Anqola, Mozambik və digər müstəqil dövlətlər yaranıb.



## Braziliyada naməlum hindu tayfası tapıldı

**Tədqiqatçılar Braziliyada Masako hindu tayfasının yaşadığı əraziləri kəşf ediblər. Bu barədə Braziliyanın "O Segredo" nəşri məlumat yayıb. Məlumata görə, alimlər onların mövcudluğu barədə fərziyyələr irəli sürsələr də, indiyədək buna dair sübutlar mövcud deyildi. Nəşr həmçinin Amazon meşəsində ov edən hinduların görüntülərini dərc edərək, bunların əvvəllər heç vaxt sənədləşdirilməmiş etnik qrupun mövcudluğunu sübut edən görüntülər olduğunu qeyd edib.**

# Qışda kondisionerdən istifadənin zərərləri



**Kondisionerlər əsasən isti yayla əlaqələndirilsə də, bir çox insan onlardan qış mövsümündə otaqları isitmək üçün istifadə edir. Lakin bu təcrübə sağlamlıq üçün mənfi nəticələrə səbəb ola bilər. Bu barədə Rusiya Texnologiya Universitetinin nanoelektronika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru Aleksey Yurasov xəbərdarlıq edib. Ekspertin sözlərinə görə, əsas problemlərdən biri havanın qurumasıdır. "Kondisionerlər, xüsusilə isitmə rejimində, otaqdakı rütubət səviyyəsini əhəmiyyətli dərəcədə azaldır. Bu, dəri, selikli qişalar və gözlərin qurumasına səbəb olur, nəticədə qıcıqlanma və narahatlıq yaranır. Həmçinin tədqiqatlar göstərir ki, havanın aşağı rütubəti orqanizmin müdafiə funksiyalarını azaldır və onu infeksiyalara qarşı daha həssas edir", - deyə Yurasov izah edir.**

Ekspertin sözlərinə görə, digər ciddi problem kondisioner sistemində toz və allergenlərin toplanmasıdır.

"Qışda pəncərələr daha az açıldığı və otaqlar daha az havalandırıldığı üçün hava daha çirklənmiş olur. Toz, tozcuqlar, kif sporları və digər allergenlər kondisionerin filtrlərində toplanır və işləyərkən otağa yayılır. Bu, allergik reaksiyalara, astma və digər tənəffüs xəstəlikləri olan insanların vəziyyətinin pisləşməsinə səbəb ola bilər", - deyə professor vurğulayıb.

O qeyd edib ki, havanın təmizliyini qorumaq və allergiya riskini azaltmaq üçün müntəzəm təmizləmə, həmçinin filtrlərin dəyişdirilməsi kritik əhəmiyyətli tədbirlərdir. "Lakin hətta düzgün qulluq zamanı belə, qışda kondisionerlərin iş effektivliyi küçə temperaturunun aşağı olması səbəbindən azala bilər. Kondensat donur, hava axınlarını bloklayır və kompressora əlavə yük yaradır. Bu, təkcə cihazın məhsuldarlığını azaltmır, həm də onun xarab olmasına gətirə bilər ki, bu da bahalı təmir və ya əvəzləmə tələb edəcək", - deyə Aleksey Yurasov xəbərdarlıq edir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500